

## Qarabağın

baharı bu il
bir başqa gəlir

5

Səs

№ 047 (6488) 15 mart
2022-ci il. Qiymәti 60 qәpik

# Şarl Mişel

## ilə Prezident İlham Əliyev arasında telefon danışığı olub



2

# Yeni dəhliz faktoru: ?

## Paşinyan özünü necə tələyə saldı



13

*Yaxud, bir addım "irəli" on addım geri!*

## "Antalyada YAP ilə AK Parti arasında əməkdaşlığın perspektivləri ətrafında faydalı müzakirələr apardıq"

Artıq ikinci ildir keçirilən Antalya Diplomatiya Forumu ötənilki ilə müqayisədə daha da genişlənib. Bu, həm iştirakçı dövlət və hökumət başçılarının, həm də, ümumiyyətlə, qatılanların sayında...




4

## Baharın gəlişini müjdələyən "İlaxır Çərşənbə"

# "Barselona"dan 21-ci əsrin rekordu



16



8

Yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramı!



### "Qoca Avropa" qondarma ittihamçı rolunda!

6

Hərdən özümə sual verirəm, Avropa İttifaqına daxil olan ölkələrdə bir ağıllı, daha doğrusu əqli cəhətdən normal...




### Malxaz Varşanidze: "Ümid edirəm ki, Cənubi Qafqaz gələcəkdə dost ölkələrin ittifaqı olacaq"

3

Gürcü politoloqu və eksperti Malxaz Varşanidze "Caliber.Az"-a müsahibəsində dünyadakı və Cənubi Qafqazdakı...

# Şarl Mişel
## ilə Prezident İlham Əliyev arasında telefon danışığı olub



**Martın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı Cənubi Qafqazda post-münaqişə dövrü, Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası məsələləri müzakirə edilib.**

Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün göstərdiyi səylərinə görə Prezident Şarl Mişelə təşəkkürünü bildirib.

Prezident Şarl Mişel qeyd edib ki, Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi, sülhü və çiçəklənməni dəstəkləməkdə davam edəcək. Söhbət zamanı, həmçinin Ukraynadakı son hadisələrin inkişafı və bunun Cənubi Qafqazda regional təhlükəsizliyə mümkün təsiri məsələləri də müzakirə olunub.

# "Şuşa İli"- Azadlıqdan Böyük Qayıdışa doğru!

*Bu Qalib Liderin "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözü ilə əməlini üst-üstə düşməsinin reallığıdır*



Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etməklə hər bir azərbaycanlının 30 illik həsrətinə son qoydu. Mədəniyyət, fəxarət, Zəfər tariximizin məntiqi nəticəsi olan "Şuşa ili" Böyük Qayıdışın ilk ilidir. Çünki Şuşa qaladır. Xurşidbanu Natavanın muzeyi, Vaqif məqbərəsi, Yuxarı Gövhar Ağa Məscidi, Cıdır düzü, mədəniyyətimizin paytaxtı, 2022-ci ilin özüdür Şuşa. Bu, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" sözü ilə əməlini üst-üstə düşməsinin reallığıdır. Bütövlükdə, bu Qalib Liderin "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözünün təsdiqidir. 2020-ci il noyabrın 8-də Qarabağın tacı olan Şuşamızın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən Müzəffər Ali Baş Komandanımızın bildirmişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

### "MƏN PREZİDENT KİMİ, ALİ BAŞ KOMANDAN KİMİ HƏR ZAMAN AZƏRBAYCANIN MARAQLARININ KEŞİYİNDƏ DURACAĞAM, ÖLKƏMİZİN HƏRTƏRƏFLİ İNKİŞAFI, HƏRBİ GÜCÜNÜN ARTIRILMASI, VƏTƏNDAŞLARIN DAHA YAXŞI YAŞAMASI ÜÇÜN ƏLİMDƏN GƏLƏNİ ƏSİRGƏMƏYƏCƏYƏM"

Bəli, heç kəsə sirr deyil ki, Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Biz bunun canlı şahidləriyik. Prezident hər zaman çıxışlarında bildirib ki, "Mənim sözüm imzam qədər qüvvətlidir". 18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verir. Ulu Öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - vəsiyyətini reallaşdıran İlham Əliyev "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - deyərək bunu əməlləri ilə sübuta yetirdi. Son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, bu gün 30 il ərzində həsrətində olduğumuz - Qarabağ Azərbaycandır! - şüarlı haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyünə və nəhayət, Qələbəyə nail olduq!.



"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir! Bəli, bu, həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərib. Ali Baş Komandanımız Prezident İlham Əliyev çıxışlarında ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacağını demişdi. Bu sözlər də artıq reallığa çevrilib və artıq həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Xurşudbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşada güllələnmiş büstləri erməni vandalizminin şahidləridir. Birinci Qarabağ müharibəsi dövründə ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Lakin Ulu Öndər Heydər Əliyevin tədbirləri nəticəsində bu büstlər ermənilərdən pulla alınmışdı və artıq onlar Şuşadadırlar.

Şuşanın düşməndən azad edilməsinin və qələbəmizin simvolu olan "Zəfər yolu"nun inşası artıq başa çatıb. Ötən il noyabr ayının 16-da təməli qoyulmuş "Zəfər yolu"nun tikintisi ilə bağlı dövlət başçımızın verdiyi sözün reallığını görürük.

### "ŞUŞA İLİ" ELAN EDİLMƏSİ AZƏRBAYCANIMIZIN DÜNYAYA TANINMASIDIR

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı xalqına, torpağına, Vətəninə olan sonsuz sevgisinin təcəssümüdür. "Şuşa İli" elan edilməsi Azərbaycanın hərb meydanı ilə yanaşı, diplomatiya müstəvisində də qələbəsinin təsdiqi və dünyaya təqdimatıdır, Zəfərimizin tarixi təntənəsidir. Bir sözlə, 2022-ci ildə Qarabağımızın gözü olan Şuşanın bərpası və yenidən qurulması işi də yeni vüsətlə davam edəcək, milli-mədəni irsin qorunması prosesinin davamı olacaq. Xalqımız üçün müqəddəs olan bu şəhərə çoxsaylı səfərlər təşkil olunacaq. Şuşa öz tarixi keçmişini qaytaracaq və bütün dünya bu şəhərdə baş verən möhtəşəm hadisələrin şahidi olacaq. Ən əsası isə, bu il - "Şuşa İli"ndə şuşalıların Şuşaya qayıdışı ən yüksək dəyər, sevincli anlar olacaq.

Bir sözlə, 2022-ci ilin "Şuşa İli" elan edilməsi Şuşanın tarixi kimliyini bir daha özünə qaytarılması, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Dahi Öndər Heydər Əliyevin bu arzusunun bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırılmasıdır. Bəli, Prezident İlham Əliyevin xüsusi nəzarət və diqqəti ilə şəhidlərimizin qanı bahasına azad edilmiş şəhərlərimiz, kəndlərimiz qısa zamanda dirçələcək, işğal dövründə düşmənə boyun əyməyən Şuşa, milli mədəniyyətimizin ünvanı kimi tarixi şöhrətini bərpa edəcək. Dövlət başçımızın dediyi kimi: "Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır".

**RƏFİQƏ KAMALQIZI**

# Malxaz Varşanidze:

## “Ümid edirəm ki, Cənubi Qafqaz gələcəkdə dost ölkələrin ittifaqı olacaq”

**Gürcü politoloqu və eksperti Malxaz Varşanidze ”Caliber.Az”-a müsahibəsində dünyadakı və Cənubi Qafqazdakı proseslər haqda fikirlərini bildirib. SİA müsahibənin tərcüməsini oxucularına təqdim edir.**




***- Rusiya və Gürcüstan iqtisadiyyatları arasında sıx əlaqələri nəzərə alsaq, Qərbin tətbiq etdiyi anti-Rusiya sanksiyalarının ölkənizə təsir edəcəyini düşünürsünüzmü?***

- Hesab edirəm ki, onlar öz əksini tapacaq, çünki bu sanksiyalar bazara və valyutalara birbaşa təsir göstərir. Bundan əlavə, burada pul köçürmələri əsas rol oynayacaq, çünki bir çox gürcülər Rusiyada yaşayır və burada köçürmələr edirlər. Təəssüf ki, Gürcüstan Rusiyanın enerji resurslarından asılıdır, çünki bildiyiniz kimi, əvvəlki hökumət bizim enerji obyektlərini Rusiyaya satmışdı. İndiki hakimiyyət bəzilərini alıb, amma bu, çox azdır.

***- Sanksiyaların tətbiqindən sonra Rusiyadan Gürcüstana pul köçürmələri azalıb, yoxsa hələ də eyni səviyyədədir?***

- Rusiyadan Gürcüstana pul köçürmələri azalıb. Avqust müharibəsi zamanı da azaldı, sonra praktiki olaraq heç bir köçürmə olmadı.

***- Rusiyanın Gürcüstana turist axınını nəzərə alsaq, bu sanksiyalar bu sahəyə necə təsir edəcək?***

- İndi bizdə birtərəfli viza sistemi var. Rusiyalı turistlərin Gürcüstana gəlişinə gəlincə, mən hesab edirəm ki, Qərbin sanksiyaları tətbiq edəndən sonra onlar, əksinə, Gürcüstana axışmağa başlayacaqlar. Təbii ki, Rusiyanın iqtisadi vəziyyətini nəzərə alsaq, hamı gələ bilməyəcək, amma çoxları gəlib uzun müddət qalacaq, çünki mənim hesablamalarıma görə, bu müharibə tezliklə bitməyəcək.

***- Gələcəkdə Gürcüstanın sanksiyalara qoşulması mümkündürmü?***

- Hesab edirəm ki, Avropa və Amerika qlobal səviyyədə sanksiyalar tətbiq etsə, Gürcüstan da onlara qoşulacaq. Gürcüstanın baş nazirinin təminatlarına baxmayaraq, bizim bank sektorumuz da tədricən bu sanksiyalara qoşulur. Təbii ki, Qərblə eyni səviyyədə onlara qoşula bilməyəcəyik, çünki sonda özümüz itirəcəyik.

Ən elementar şeyi götürək: bunu etsək, ölkənin 70%-i işıqsız qalacaq. Bu sanksiyalara öz resursları olan dövlətlər qoşula bilər. Lakin Gürcüstanda bunlar yoxdur. Ona görə də hesab edirəm ki, hökumətimiz qlobal səviyyədə sanksiyalara qoşulmamaqla müəyyən dərəcədə düzgün addım atdı, çünki bu, Rusiya-Gürcüstan münasibətlərinin kəskinləşməsinə gətirib çıxaracaq.

***- Rəsmi Tbilisinin Aİ-yə daxil olmasını sürətləndirmək qərarını necə qiymətləndirirsiniz?***

- Prinsipcə, xüsusilə belə mühüm bir dövrdə ərizə verməklə düzgün addım atıblar. Və qəbul faktı artıq vəziyyətin özündən asılıdır. Ola bilsin ki, məhz belə bir konfliktli dövrdə bu müraciət təcili qəbul olunacaq, bəlkə də əksinə, amma hər halda inanıram ki, bu proses daha da güclənəcək.

***- Gürcüstanın NATO-ya daxil olması üçün hansı perspektivlər var?***

- NATO-ya qəbul səsvermə yolu ilə baş verir, təbii ki, bütün aspektlər nəzərə alınır. İndi deyirlər ki, bizdə siyasətdə Kreml yönümlü kurs var, amma bu heç də belə deyil. Təəssüf ki, Ukraynanın NATO-ya daxil olmaq istəyi dəhşətli nəticələrə gətirib çıxardı və eyni şey Gürcüstanla da baş verə bilər, çünki fikrimcə, Kreml indi bütün diqqətini keçmiş Sovet İttifaqının dirçəlişinə yönəldib və əgər nəsə onun maraqlarına uyğun getməsə, o, öz işini görməyə başlayır. Baltikyanı ölkələr o dövrdə sadəcə şanslı idilər. Amma Gürcüstan üçün daha çətin olacaq.

***- Qarabağ münaqişəsinin Azərbaycan tərəfindən həllinə münasibətiniz necədir?***

- Mən müsbət mənada hər iki dövlətin yaxınlaşması yollarının axtarışına başlanmasını xüsusilə dəstəkləyirəm və ümid edirəm ki, regionumuz gələcəkdə inkişafa yönəlmiş dost ölkələrin ittifaqı olacaqdır. Mən daha çox əminəm ki, Bakı ilə İrəvan arasında sülh yaranacaq. Burada, Gürcüstanda ermənilər də, azərbaycanlılar da münaqişə etmirlər və ən çətin məsələləri belə sülh yolu ilə müzakirə edirlər. Rusiyanın indiki siyasəti puça çıxsa, bu, bizim regiona çox yaxşı əksini tapacaq.

***- İşğal olunmuş ərazilərin qaytarılması üçün ölkəniz hansı addımları atır?***

- Gürcüstan Rusiyanın regionlarımızı işğal etməsi ilə bağlı bütün həqiqətləri dünya platformalarına çatdırmağa çalışır. Bundan əlavə, ölkə hökuməti abxazlara və osetinlərə humanitar yardım edir. Biz öz ərazilərimizi sülh yolu ilə qaytarmalıyıq.

***- Gürcüstan siyasətində Mixail Saakaşvilinin gələcəyini görürsünüzmü?***

- Yox, mən onun rolunu ancaq ölkədə sabitliyin pozulmasında görürəm. Çünki onun müsbətdən çox mənfi hərəkətləri olub. O, öz fəaliyyətini həmişə tez və təmtəraqla həyata keçirirdi. Bu gün Gürcüstanda baş verən bütün neqativ proseslər Saakaşvilinin siyasətinin nəticəsidir.

***Tərcümə -***
***Elçin Bayramlı***




# Azərbaycan “Parlament diplomatiyası” mövzusunda keçirilən dəyirmi masada geniş tərkibdə təmsil olunub



Antalya Diplomatiya Forumu çərçivəsində ”Parlament diplomatiyası” mövzusunda keçirilən dəyirmi masada Azərbaycan geniş tərkibdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, dəyirmi masada Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi, Ümumdünya Elmlər Akademiyasının fəxri professoru və Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Asəf Hacıyev, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, ölkəmizin Avropa Şurası Parlament Assambleyası yanında nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Azərbaycan Milli Məclisinin deputatı, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun üzvü Ramil Həsən, Milli Məclisin ATƏT PA-da nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın vitse-prezidenti və Cənub-Şərqi Avropa üzrə xüsusi nümayəndəsi Azay Quliyev, Azərbaycan Milli Məclisinin deputatı Tural Gəncəliyev və başqaları mövzu ətrafında fikir və mülahizələrini bölüşüblər.






Çıxışlarda vurğulanıb ki, ənənəvi diplomatiyanı tamamlayan parlament diplomatiyası milli ehtiyac ilə gözləntilərin və digər parlamentlərin nailiyyətlərinin daha geniş perspektivdən qiymətləndirilməsinə imkan verməklə problemlərin həlli yollarını tapmağı hədəfləyir. Müzakirələrdə parlamentlər arasında ikitərəfli və çoxistiqamətli əməkdaşlıq əlaqələri, parlament diplomatiyasının inkişafı baxımından mühüm amil kimi dəyərləndirilib.

Azərbaycan təmsilçilərinin Milli Məclisin fəaliyyəti, deputatlarımızın beynəlxalq parlament diplomatiyası mühitində fəal iştirakı, bu sahədə əldə olunan uğurlar, həmçinin Yeni Azərbaycan Partiyası deputatlarının beynəlxalq təşkilatlardakı təmsilçiliyi barədə məlumatları iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Azərbaycan Ermənistanla münasibətlərin yaradılması üçün təklif edilən baza prinsiplərini açıqlayıb



Xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda çıxışı zamanı Azərbaycanın münaqişə sonrası mərhələdə sülh quruculuğu səylərindən bəhs edib. Bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in iki ölkə arasında münasibətlərin yaradılması üçün Ermənistan tərəfinə təqdim edilən baza prinsiplərinə dair sualını cavablandırarkən deyib.

Leyla Abdullayeva bildirib: "Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ölkəmiz tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində Ermənistan tərəfindən buna qarşılığın verilmədiyi qeyd edilib. Məlumat verildiyi kimi, növbəti addım qismində Azərbaycanın bir neçə gün öncə, iki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təklifi vasitəçilər tərəfindən Ermənistana təqdim edilib. Burada iki dövlət arasında münasibətlərin normallaşması üçün aşağıdakı beş baza prinsipi əks olunub:

- Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
- Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;
- Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
- Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması". L.Abdullayeva qeyd edib ki, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər.

## "Antalyada YAP ilə AK Parti arasında əməkdaşlığın perspektivləri ətrafında faydalı müzakirələr apardıq"

**Artıq ikinci ildir keçirilən Antalya Diplomatiya Forumu ötənilki ilə müqayisədə daha da genişlənib. Bu, həm iştirakçı dövlət və hökumət başçılarının, həm də, ümumiyyətlə, qatılanların sayında özünün göstərir. Forumun məqsədi daha ədalətli dünyanın qurulmasında diplomatik yollar axtarmaqdır.**




Bu fikirləri jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Antalya Diplomatiya Forumu çərçivəsində bildirib.

Dünyanı narahat edən problemlərin müzakirə olduğu Forumda iştirak etməyin Yeni Azərbaycan Partiyası üçün faydalı olduğunu diqqətə çatdıran YAP Sədrinin müavini Tahir Budaqov deyib ki, tədbir çərçivəsində Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım ilə görüşdə iki qardaş ölkənin hakim partiyaları arasında imzalanmış əməkdaşlıq protokolunda nəzərdə tutulan müddəaların icrası, perspektivdə olan məsələlər ətrafında faydalı müzakirələr aparılıb.

# Ermənilər kömək yox, zərbə gözləyirlər

***Rusiyanın işğalçı Ermənistanla bir yerdə olacağına ümid edənlər, yəni ermənilər dərk etməkdədirlər ki, indi bu onların əleyhinə işləyir. Onlar dərk edirlər ki, Rusiya ilə yalnız yoxsulluqda, ağır yük altında yaşamaq məcburiyyətində, bir də beynəlxalq təcrid olunma müstəvisində bir yerdə olmaq sonda nəsibləri olacaq, daha doğrusu olmaqdadır. İndi Rusiya ilə münasibətlərinin olmasına görə qorxu içində yaşamaqdadır ermənilər. Çünki, bilirlər ki, Rusiyaya qarşı sanksiyalar Ermənistana da güclü bir zərbə deməkdir.***

Rusiyaya qarşı sanksiyalar onsuz da bu dövlətə Avrasiya məkanında bir zərbə oldu. İndi bu zərbənin Ermənistana yönələcəyindən ermənilər bərk qorxuya düşüblər. Hətta Ermənistan cəmiyyəti sağ qalmaq təhlükəsi ilə üzləşəcəkləri qorxusu içərisindədir. Təsəvvür edəndə ki, Rusiya kimi qüdrətli bir dövlət bu sanksiyalardan titrəyib, deməli Ermənistan bu təsirlərdən yox ola bilər. Bu qədər sanksiyalara bütün dünya erməniliyinin belə tab gətirə bilməyəcəyi zərrə qədər şübhə doğurmur və bunu elə ermənilərin özləri də yaxşı bilirlər və qorxuya düşmələri də bu səbəbdəndir.

Rusiyada defolt qaçılmazdır. Hətta hesablamalara görə, aprelin sonuna qədər bu baş verəcək. O zaman isə əlbəttə ki, xalqı nəzarət altında saxlamaq çətin olacaq. Bəlkə də heç mümkün olmayacaq. Hətta mövcud durumdan dəhşətə gələn ruslar böyük aclığın yaxınlaşdığını hiss edərək küçələrə çıxa bilirlər. Bu da ölkə daxilində xaos deməkdir. Kim bilir, bəldə də Rusiyada hansısa toqquşmalar, qarşıdurmalar, vətəndaş müharibəsi də ola bilər. Əslində, bu gözləniləndir. Belə bir vəziyyət isə ölkənin tamamilə çökməsi, məhv olması ilə nəticələnə bilər.

Vəziyyətin acınacaqlı olduğunu dərk edənlərin çoxu artıq dünyanın müxtəlif ölkələrinə qaçır. Məsələ burasındadır ki, artıq bir çox ruslar qaçmaq üçün Ermənistanı seçiblər. İndi bu ölkədə, Ermənistanda otellər və kirayə mənzillər həddindən artıq dolub. Yəni, Rusiya Ermənistan ilə heç bir məsləhətləşmə etmədən, sadəcə olaraq, öz müttəfiqlərini fakt qarşısına qoyaraq öz batdığı yerə Ermənistanı da sürükləyir. Guya Rusiya Federasiyası həmrəyliyə görə belə edir, amma reallıq tamam başqa nəticələr vəd edir. Sanki, Ermənistana qarşı sanksiyaların yayılması ərəfəsində erməniləri həyatın dəhşətinə öyrətmək istəyirlər. Bu fonda Belarus artıq sanksiyalar alıb və bu ölkənin də sonu görünmür, qaranlıqdır, baxmayaraq ki, Putin və Lukaşenko dəhşətli yalanlar səsləndirirlər ki, sanksiyalar altında yaşamaq o qədər də çətin deyil. Əslində isə, çox çətindir və buna əhalinin dözəcəyi reallığı əks etdirmir.



Ukrayna ilə müharibədə Rusiyanın kəskin resurs çatışmazlığı var. Eləcə də Rusiya digər ölkələrdən mənəvi dəstək ala da bilmir. Təsəvvür etmək belə çətindir ki, dünyanın "ikinci" ordusu Ukrayna ilə iki həftədən az davam edən müharibədən sonra resurs, insan resursu və texniki baxımdan sıxıntı keçirir. Hətta Sergey Şoyqu elan edib ki, Yaxın Şərq ölkələrindən 16 mindən çox könüllü Donbasa gələ bilər, müstəqillik uğrunda mübarizədə qondarma respublikaya kömək edə bilər. Bu durum əlbəttə ki, Rusiya kimi tanıdığımız bir ölkədə müşahidə edilirsə, deməli Ermənistan üçün dəhşətli nəticələr deməkdir.

Məsələ burasındadır ki, Ermənistan hansı bir dalana dirənəcəyini yaxşı bilir. Bilir ki, Rusiyanı özünə arxa, dayaq seçibsə və mövqeyini də müdafiə edibsə, deməli Rusiyaya dəyən zərbə Ermənistan üçün də gözləniləndir. Daha doğrusu ermənilər böyük rus qardaşlarına dəyən zərbədən birinin də başlarına endiriləcəyini gözləyirlər. Amma rusların bu zərbəyə davamı bəlkə də bir müddət davam edə bilərsə belə, ermənilərin belə bir ümidi belə yoxdur. İndi ermənilər hesab edirlər ki, "cəhənnəmə gedən özünə yoldaş axtarar", misalında ruslar erməniləri özləri ilə quyunun dibinə sürükləməkdədirlər. Mübahisə etmək niyyətimiz yoxdur, ola bilsin ki, rusların belə bir niyyəti olmaya bilər, amma hər bir halda ermənilərin onlarla bərabər quyunun dibinə düşəcəyi bir reallıqdır.

Hərbi texnikasından tutmuş, ən çox istifadə edilən gündəlik tələbat mallarına qədər ölkəsini təmin etmək üçün Ermənistanın gözünü Rusiyaya dikdiyi yeni bir təzahür deyil. Bütün dünya illər, onillər boyu bunun şahidi olub ki, ermənilər ancaq ruslar sayəsində mövcud olublar və Ermənistanın təminatı da məhz Rusiyanın hesabına reallaşıb. Belə bir sual ortaya çıxır ki, əgər Rusiya özü özünü təmin edə bilmirsə, Ermənistanı necə təmin edəcək? Heç cür. Təmin olunmadığı təqdirdə ermənilər nəyin hesabına mövcud olacaqlar? Ayaqda qalmaq üçün əlində-ovcunda bir şey olmayan dövlət hansı təminatı edə bilər? Bu ölkənin nəyi var axı? Üz tutduqları Rusiya da buna qadır olmadığı halda, imkansız olduğu halda erməni cəmiyyətinin halını təsəvvür etmək çətin deyil. Belə olan halda ermənilərin əyri ağızlarını düzəltmək mümkün olacaqmı və bunun öhdəsindən Ermənistan hakimiyyəti gələ biləcəkmi? Bu hal səfalət içərisində olan işğalçı ölkə üçün bir zərbə deyilmi?

Bir daha xatırladaq ki, Ermənistan sərhədləri yaxınlığında əsl dramatik hadisələr cərəyan edir. Rusiya bir tərəfə, qonşusu İran yaxında İsrail və ABŞ-ın cavab zərbələrinin obyektinə çevrilə bilər. Bu isə o deməkdir ki, tammiqyaslı Üçüncü Dünya Müharibəsi düz ermənilərin başı üzərində başlaya bilər. Bəli, belə bir müharibə artıq Ukraynada daha da qızışır, lakin hələ ki, NATO buna müdaxilə etməyib. Alyans səylə problemin həlli yollarını axtarır. Eyni zamanda alyans Rusiya və İrana öz zəifliyini göstərir, amma bu hələ son deyil. Ukrayna ilə bağlı məsələlər rəsmi Tehranı ruhlandıra da bilər və sərtlik nümayiş etdirmək arzusuna düşə bilərlər. Bu isə yeni bir qaynar ocaq deməkdir və bu məqamda da ermənilərə zərbə gözləyir.

Ermənistan dəhşətli bir vəziyyətlə üz-üzədir və çox acınacaqlı durumdadır. Bu ölkənin iki müttəfiqi varsa, ikisi də Qərbin gözündə düşmən görünür. İndi təkcə Rusiya deyil, elə İran da düşmən kimi qəbul olunmaqdadır, hansıki bu ölkələri ermənilər özlərinə kömək edən, yardım göstərən müttəfiq ölkələr hesab ediblər. Bunu elə Qərb də belə qəbul edib, deməli zərbənin biri də Ermənistanın başı üzərinə gəlməkdədir. Əgər Rusiya siyasi və iqtisadi nəticələrlə üz-üzə qalıbsa, deməli Ermənistanın bundan yayınacağını ermənilər ağıllarına belə gətirə bilmirlər. Qərbin gözündə dəhşətli şər olan iki ölkənin, Rusiya və İranın müttəfiqi sayılan Ermənistanın da şər hesab olunması yaxın zamanda özünü biruzə verəcək. Əksər tanınmış politoloqlar, siyasi texnoloqlar açıq şəkildə bildirirlər ki, Putin Rusiyası Ermənistanı quyunun dibinə çəkir. Məsələ burasındadır ki, Ermənistanı quyunun dibinə İranın da çəkmiş olduğunu ifadə edənlər var, amma bu işğalçı ölkə bu zamana qədərki işğalçılıq siyasəti ilə, hansısa dözlətlərdən asılı olması ilə, bunu qəbul etməsi ilə özü-özünü quyunun dibinə salıb, onu çəkməyə eytiyac yoxdur. Eyni ilə gəmi batdığı zaman yaxınlığında olan xırda qayıqları da suyun dibinə çəkdiyi kimi, özünü Rusiyanın, İranın kölgəsinə verən, bu iki böyük ölkənin kölgəsində kölgələnən Ermənistan da ən xırda təlatümlər zamanı qərq ola, hətta yox ola bilər. Ermənistan zərbələrin ona dəyəcəyini hər zaman gözləyib, amma görünür bu zaman artıq yaxınlaşıb, hansıki erməni cəmiyyətini də qorxuya salan elə budur. Çox tezliklə yeni formalaşan vəziyyətin Ermənistana necə ağır zərbə vuracağını bütün dünya müşahidə edəcək, amma bunu ermənilər özləri hiss etməkdədirlər. Ermənistan üçün vəziyyət həddindən artıq gərgin hesab olunur, heç kimə arxalana bilmədiklərinin ermənilər fərqindədirlər. Qərbin isə köməyinə erməni cəmiyyətinin zərrə qədər ümidi yoxdur, çünki Ermənistan həm Rusiyanın, həm də İranın rəsmi müttəfidir. Daha dəqiq desək, ermənilər Qərbdən kömək yox, zərbə gözləyirlər. Bir sözlə, Ermənistanın qarşılaşacağı zərbə yaxınlaşmaqdadır və ermənilər vəziyyəti daha dərindən dərk etsələr bilərlər ki, atılıb-düşmək yox, mövcud reallıqlar qarşısında təslim olmaq məcburiyyətindədirlər.

***İnam Hacıyev***

# Qarabağın

## baharı bu il bir başqa gəlir



Düz 30 il idi ki, bilmirdi bahar nədir Qarabağ. Vətənindən qoparılmışdı, sinəsi qan, gözü yaşlı idi. Bahar gəlib bu yurdun qapısından boylanıb sakitcə çəkilib gedirdi. Qarabağ ona qoynunu açmırdı, "gəl, baharım, gəl",- demirdi. Daha doğrusu deyə bilmirdi. Çünki illərlə sadəcə qış ömrünün saçlarına ələdiyi qar buzlaşıb hər telindən asılı qalmışdı. Son baharı 30 il əvvəlki baharda qalmışdı. Bu bahara neçə illərin qışı elə sitəm etmişdi ki, qərinəyə yaxın iliyinə işləyən soyuq-sazaqdan üzü donuqlaşmış, dili tutulmuşdu, bahara "gəl" deyə bilmirdi. Bahar da sanki küsmüşdü Qarabağdan. Bu yurd onu başqa yurdlar kimi təntənə ilə qarşılamadığı üçün günəşin zərrin şüalarını əsirgəyirdi. Bu səbəbdən də Qarabağın qaş-qabağı heç açılmırdı. Üşüyürdü, ana qucağından ayrı düşmüş uşaq kimi. Ağlayırdı-sızlayırdı ana sevgisi üçün. Necə qarşılayardı baharı? Hansı gününə yazı qarşılaya bilərdi. Onun yazı yazısıydı, alın yazısı...

30 il Vətəninə həsrət yazısıydı. Yurddaşının səsinə həsrət idi yazısı. Bu torpaq doğmasının addımını istəyirdi sinəsi üstə. O addımlarla fəsilləri dəyişirdi: qışına yaz gəlirdi, çöl-çəməni laləzara dönürdü. Bel, kətmən, kərənti səsi zəhmətin nəğməsinə çevriləndə hüzur tapırdı. Bu zaman yazı yayı, yayı payızı gətirirdi. Sinəsində alın təri bol məhsula çevriləndə gülümsəyirdi, gülürdü, güldükcə də gün doğurdu ömrünə. Ta ona qış nə edə bilərdi ki...

### 2020-nin payızı Qarabağın yazı oldu

Kim deyərdi ki, 30 ildə bahar yaşamayan Qarabağın ömrünə bir payız yaz gələcək. Baharın ılıq nəfəsindən oyanmayan bu yurd payızın soyuq-sazağını necə yazına çevirəcək. Çevirərmiş demək ki. Otuz ildə doğmalarının nəfəsinə həsrət qalan Qarabağ ayaq səsindən tanıdı ki, onlar gəlib. Uğrunda 44 gün gedən döyüşlərdə mərmilərin səsindən anladı ki, xilaskarı gəlib. Əsgərimiz düşmən gülləsinə tuş gələndə axan qanı torpağa hopduqca anladı ki, bu payız əvvəlki payızlardan deyil. Xəzəlini əsgərimə yastıq edəndə uzanan ana əlinin ona çatmaqda olduğunu hiss etdi. Düşmən hər gün bir az sinəsindən qoparılanda o günün uzaqda olmadığını duydu.Qarabağın bu günü üçün 20 ilə yaxın idi ki, hazırlıq gedirdi. Ölkəmizin rəhbəri bütün çıxışlarında, bayram, əlamətdar günlərlə bağlı təbriklərində bu günün gəlib çatacağını vurğulayırdı. Sülhlə, sakitliklə olmasa da, müharibə yolu ilə torpaqlarımızın işğaldan azad olunacağını bildirmişdi. Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmışdı. Lakin bu səsə səs verən yox idi. Kimsə Azərbaycanın düşdüyü bəladan xilasına köməklik göstərmək fikrində deyildi. Belə olanda isə torpaqlarımız müharibə yolu ilə alınmalı idi. Alındı da. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə Milli Ordumuz şücaət göstərdi. Gənclərimizin hünər və rəşadətindən dünya danışdı. Vətən sevgisi, vətənpərvərlik necə olar, bunu hər bir vətəndaşımızın timsalında gördülər. Oturduğumuz yerdəcə evlərimiz bombalandı, həyət-bacamız dağıdıldı, "Olsun, ölkəmizin başçısı bizə ev də verəcək, ziyanımızın da hər biri ödənəcək",- dedik. Ta ki, torpağımız geri alınsın. Çünki illər boyu erməni təxribatları nəticəsində evsiz-eşiksiz qalan hər bir vətəndaşa bu münasibət göstərilmişdi.Həmrəyliyimiz döyüş məharətimizə, birliyimiz gücümüzə çevrildi. Övladlarımızı itirdik. Şəhid atası, anası olduq. Şəhidimizin üzünü görmədiyi körpələrin baba-nənəsi olduq. Ürəyimiz sızladı, lakin namusumuz olan torpağımızı geri qaytardıq.Payızın 44 günündə Qarabağa bahar gəldi. Şəhid qanı torpağı suvardıqca bağ-bağçalar gül açdı. Hər bir rayona, şəhərə, kəndə üçrəngli bayraqlarımız asıldıqca günəş onun dalğasından ilham alıb payızın sazaq-soyuğunu qovacaq qədər parladı. Qarabağa payızda bahar gəldi...

### İlaxır çərşənbən mübarək, Qarabağ

Bahar Azərbaycanın həm yazı, həm Novruzudur. Novruz bu xalqın qədim tarixə söykənən milli bayramı, özünəməxsus zəngin milli dəyərlərinin saxlanc yeridir. Bu dəyərlər içində ən gözəli isə bayramqabağı əzizlərimizin qəbirlərinin ziyarət olunmasıdır. Hər il Novruzdan əvvəl hər kəs qəbiristanlığa gedər, dünyasını dəyişən yaxınlarını ziyarət edərlər. Həmçinin ötən Novruzdan sonra dünyasını dəyişənlərə "qara bayram" deyilən dini mərasim keçirilər, adlarına ehsan verilər, ruhlarına dualar oxunar, qəbirləri ziyarət olunar. Bu xüsusiyyətlər həm də əziz bayram olan Novruzun dini xarakter daşıdığını şərtləndirir.

Qarabağ indi minalardan təmizlənir. Biz hələ o torpaqlara gedə bilməsək də, ötən il də, bu il də yurd yerlərimizdə uyuyan əzizlərimizin ruhu onları ziyarət etmişik kimi şad oldu. Çünki artıq onların ruhu işğal altında olan torpaqlarda deyil, azad torpaqlarda dolaşır.Budur, artıq ilaxır çərşənbəsi özündən əvvəlki üç çərşənbəni arxada qoyub bizi baharın biraddımlığına gətirib çıxardı. İlaxır çərşənbən mübarək, Qarabağ. Ocaqların gur yansın. Bu odun istisi qarşıdan gələn baharın ılıq nəfəsinə qarışıb sənə gözəl bir yaz gətirsin. Ötən il şəhidlərimizə "qara bayramlar" verdik. Dünənədək yurddaşlarının həsrətini çəkib göz yaşı tökürdün. 44 gündə torpağa verdiyin üç minədək şəhidin üçün ağladın, onlara yas tutdun. Bütün xalq heç bilmədi çərşənbələr, Novruz necə gəldi, necə getdi.Builki Novruzunu şadyanalıqla qarşıla, Qarabağ. Qoy torpağın gülsün, dağın-düzün, çölün-çəmənin bayram etsin. Yurduna bahar gəlir. 30 il qəmdən-qüssədən yaxına buraxmadığın bahar. Şəhidlərin al qanıyla bağrında al çiçəklər açılan bahar. Qoy baharın allı-güllü gəlsin. O güllərdən dərib dəstə bağlayasan, hər il şəhidlərinin məzarlarını ziyarət edib sənə bu günləri nəsib edən o gənclərə dualar oxuyasan.İlaxır çərşənbən mübarək, Qarabağ. Qoy tonqalların gur yansın. Qonşuluqdakı düşmən bu tonqallarda yanan arzuları ilə sənə həsəd aparsın. Tək sənə deyil, bütövlükdə Azərbaycan xalqına. Çünki onlar heç vaxt bu millət qədər gözütox, müdrik, mərd ola bilmədilər. Başqasının torpaqları hesabına özlərinə Vətən düzəldən düşmənin bəd nəzərləri qoy tonqallarında yansın. Bir xalqın öz rəhbərinin ətrafında birləşib nələrə qadir olduqlarını bəlkə bu tonqallar onlara başa sala. Anlayalar ki, 30 il əvvəl Qarabağı onlara satan üzdəniraqlar heç vaxt bu millətin nümayəndəsi ola bilməzlər. Onlar nə vaxt var olsalar, bu tonqallarda yanıb kül olacaq, tarixin zibilxanasına atılacaqlar.Bu xalqın əzmiylə, gücüylə, həmrəyliklə, birliyilə qazandığın azadlığın mübarək, ilaxır çərşənbən mübarək, Qarabağ!

### Bu bahar Qarabağa bir başqa gəlir

Bu bahar Qarabağın taleyində heç vaxt olmayan bahardır. Axı Qarabağ heç müstəqillik də görməmişdi. Xalq müstəqilliyi yenicə qazanmışdı ki, Qarabağ işğal olundu. Müstəqillik sevincini doyunca yaşamadı. Bir-birinin ardınca rayon, şəhər, kəndləri əlindən alındı, yurddaşları ata-baba ocağından, doğma ev-eşiyindən didərgin salındılar. Qapıları bağlı qaldı. Ürəkləri yurd həsrəti ilə qübar bağladı. İllərlə qaçqın, köçkün həyatını yaşamalı oldular. "Torpağım, yurdum" deyə-deyə minlərlə insan dünyasını dəyişdi, Qarabağ torpağında-öz yurdunda deyil, ayrı-ayrı yerlərdə torpağa tapşırıldılar.Bu bahar həqiqətən Qarabağın bir başqa baharıdır. Müstəqil Vətəninə qovuşduğu, sinəsində abadlıq, bərpa işlərinin aparıldığı bahardır. Ötən həftə Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalandığı bahardır. Ermənilərin kənardan sadəcə seyrçi olaraq bu memorandumu izlədiklərinə, ağılsızlıqları ucbatından ondan yararlana bilmədiklərinə şahid bahardır. Bu bahar Qarabağın qarşısında yeni üfüqlər açacaqdır. Buraya investisiya qoymaq istəyən iş adamlarının, sahibkarların sayı günü-gündən artır. Bu isə o deməkdir ki, Qarabağ çox yaxın gələcəkdə əvvəlkindən də gözəl, müasir, abad görkəmə qovuşacaq, yurddaşları bu torpaqlara qayıdacaq, burada yaşayacaq, Qarabağın 30 illik yurddaş həsrətinə son qoyacaqlar.Bu bahar bütün mənalarda yeni baharların təməlidir Qarabağ üçün. Hələ qarşıda nə baharlar yaşayaq Qarabağ...

*Mətanət MƏMMƏDOVA*

## YAP-ın veteran üzvü Əjdər İsmayılov dünyasını dəyişib

**"91-lər"in üzvü, filologiya elmləri doktoru, professor Əjdər İsmayılov 13 mart 2022-ci ildə vaxtsız vəfat edib. SİA xəbər verir ki, bu barədə professorun oğlu Cavid İsmayıl məlumat verib.**



Qeyd edək ki, Əjdər İsmayılov 23 aprel 1938-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çomaxtur kəndində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1963-1965-ci illərdə Azərbaycan Teatr İnstitutunun rejisorluq fakültəsində oxumuş, rejisor Mehdi Məmmədovun və aktyor Rza Təhmasibin tələbəsi olmuşdur.

1961-1977-ci illərdə Çomaxtur kəndində müəllim, məktəb direktoru, daxili işlər nazirliyinin, "Şərq qapısı" qəzetinin əməkdaşı, 1977-1994-cü illərdə Naxçıvan Dövlət Universitetinin ədəbiyyat kafedrasında müəllim, baş müəllim, dosent və professor olmuşdur.

1961-ci ildə ADU-nu bitirib, anadan olduğu dogma kəndində, Çomaxtur kənd səkkiz illik məktəbində pedaqoji fəaliyyətə başlamışdır. Çomaxtur kənd səkkiz illik məktəbində yenidən müəllimlik fəaliyyətinə başlayaraq 1974-1977-ci dərs ilində özünün şəxsi təşəbbüsü ilə səkkiz illikdən orta təhsilə çevrilən və müasir tədris avadanlığı ilə təchiz edilmiş iki mərtəbəli məktəb binasının inşasında müstəsna xidməti olmuş və məktəb direktoru işləmişdir.

1977-ci ildə Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutuna dəvət edilmiş, Ədəbiyyat kafedrasında müəllim, baş müəllim, dosent və professor olmuşdur (1994-cü ilə qədər).

### YAP-ın yaradıcıları olan 91-lərdən bir qrupu

1992-ci ilin 21 aprelində Azərbaycan Respublikasına prezident seçkisi qarşısında Şərur əhalisinin toplantısını təşkil etmiş, Heydər Əliyevin prezidentliyə namizədliyini irəli sürdmüşdü. Bu toplantı müdrik siyasət rəhbərinin Azərbaycanı müstəqilliyə aparacaq mübarizə yolunun başlanğıcı idi. Toplantının çıxardığı qərarı 22 aprel 1992-ci ildə Bakı şəhərində yerləşən döyüşən Naxçıvana hər cür köməklik göstərən "Əlincə" cəmiyyətinə çatdırmışdı.

Bunun davamı olaraq Ali Sovetinin binası qarşısında 1992-ci ilin 24 aprelində tarixi mitinq keçirilmişdi. Mitinqin təşkilatçılarından olan Əjdər İsmayılov ilk çıxışında Azərbaycana qarşı aparılan çirkli oyunlar barədə tutarlı faktlarla bağlı fikirlərini söyləmişdir.

Əjdər İsmayılov mitinqdən sonra Heydər Əliyevin dəvətilə Naxçıvanda onun qəbulunda olmuş və Bakıda baş verən mürəkkəb və ziddiyyətli siyasi hadisələr barədə xilaskarımıza ətraflı məlumat vermişdi. 1992-ci ilin avqust ayında o, Şərur rayonunda ziyalılardan ibarət "Heydər Əliyev tərəfdarları" təşəbbüs qrupunu yaratmışdır.

1992-ci ilin 9 dekabr tarixində Əjdər İsmayılov Yeni Azərbaycan Partiyasının ümumxalq mahiyyətini aşkarlayan "Səs" qəzetində "Partiyamızın lideri xalqdır" bəyanatı ilə çıxış etmişdir.

1993-cü ilin 27 yanvarında Heydər Əliyevin iştirakı ilə keçirilən YAP-n Şərur rayon təşkilatının təsis konfransında Əjdər İsmayılov çıxışının bir yerində demişdir: "Vətənimizi hədələyən fəlakətlərdən qorumaq üçün Allahın yolladığı bu müdrik xilaskarı biz həyatımız bahasına olsa da, qorumalıyıq".

1994-cü il 5 oktyabr tarixində Heydər Əliyevin göstərişi ilə Azadlıq meydanında yüz minlərlə əhalinin iştitak etdiyi dövlət çevrilişinə həsr edilmiş mitinqin təşkilatçılarından biri də Əjdər İsmayılov olmuşdur. "91-lər"in üzvü olan Ə.İsmayılov YAP-ın Veteranlar Şurasının üzvü idi.

SƏS Media Qrupun kollektivi Əjdər İsmayılovun vəfatı münasibətilə mərhuma Allahdan rəhmət diləyir, yaxınlarına, doğmalarına dərin hüznlə başsağlığı verir.

# “Qoca Avropa”

## qondarma ittihamçı rolunda!



Hərdən özümə sual verirəm, Avropa İttifaqına daxil olan ölkələrdə bir ağıllı, daha doğrusu əqli cəhətdən normal bir dövlət başçısı, yaxud deputat varmı? Yox, elə bilməyin ki, mən bütün əndazələri aşıb, kimsəni təhqir edirəm, yaxud hansısa fərdin əməllərinə qərəzlə yanaşıram, əsla. Məsələ burasındadır ki, hər birimiz Avropa İttifaqı deyilən qurumun parlamentində təmsil olunan avropalıların yetişmiş, savadlı, dünya siyasətindən baş çıxaran birisi kimi qəbul edirik. Asan məsələ deyil, bu parlamentarilər həm öz ölkələrini, həm də bütöv bir qitəni - Avropanı təmsil edirlər. Belə olan təqdirdə Avropa Parlamentində təsadüfi şəxslərin təmsil olunmasını ağlımızın ucundan da keçirmirik. Amma böyük səhv edirik. Bu qurumun son dövrlər verdiyi qərarlardan da görünür ki, burada nəinki təsadüfi, həm də ağıldan dayaz, bisavad, dünya siyasətindən tamamilə uzaq və qərəzli insanlar toplaşıb. Əgər bu ikiayaqlılarda bircə qram qeyrət olsa məni məhkəməyə verər, ağıllı olduqlarını sübuta yetirər və mənə bu dünyanı dar edərlər. Amma arxayınam, onlarda bu cəsarət heç vaxt olmayıb və xüsusən də əlahəzrət faktın qabağında boyunları qıldan nazikdir.

Məsələ belədir, Azərbaycan torpaqları 30 il erməni işğalında, tapdağında qaldı, keçmiş ”Dağlıq Qarabağ” və onun ətrafındakı 7 rayon tamamilə məhv edildi, nəinki dini, mədəni abidələr, qəbristanlıqlar, hətta yaşayış evləri dağıdıldı, məktəblər, bağçalar, xəstəxanalar, muzeylər, məscidlər yerlə yeksan edildi, viran qoyuldu. Amma ağıllı Avropa susdu, sanki dağılan milli, dini, mədəni abidələr, yaşayış evləri deyilmiş. 30 il Avropaya, onun institutlarına, insan haqları barədə boğazdan yuxarı danışan qurumlara, elə Avropa Parlamentinə, Avropa Şurası Parlament Assambleyasına (AŞPA), NATO-nun və ATƏT-in parlamentlərinə çoxsaylı müraciətlər etdik, lakin hamısı qulaqlarına pambıq tıxadı, baş verənləri görməzdən gəldilər. Qarabağdan və Şərqi Zəngəzurdan, Ermənistandan qovulan milyondan çox azərbaycanlının hüquqlarını tanımadılar, səslərini eşitmədilər, mədəni abidələrimizin dağıdılması barədə faktlar göstərdik, baxıb bir kənara tulladılar. Budur Avropa və bu ittifaqı təmsil edən parlamentarilərin iç üzü. Yenə də onlardan soruşmaq istəyirəm, bu 30 ildə haralarda idiniz, harada itmişdiniz, məgər məscid dini abidə deyil? Nə olsun ki, xristian kilsəsi deyil? Dini, mədəniyyət abidəsi deyəndə siz təkcə xristian abidələrinimi nəzərdə tutrsunuz? Bəs sizin obyektivliyiniz harada qaldı?

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Avropa Parlamentinin 10 mart 2022-ci il tarixli qətnaməsinə dair bəyanat verib. Bəyanatdan qısa bir fikri sizin diqqətinizə çatdırıram: ”Ermənistanın və Avropa Parlamentindəki erməni lobbisinin tamamilə yalan məlumatlarına əsaslanan, Azərbaycan torpaqlarının 30 illik işğalı dövründən irəli gələn reallıqları, o cümlədən bu torpaqlarda mədəni irsimizə qarşı törədilən vandallıq faktlarını təhrif edən, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini şübhə altına alan, regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətindəki səylərini zədələyən bu qətnamə eyni zamanda özündə bir sıra təhlükəli məqamları ehtiva etməklə bəşəriyyətin dini, irqi ayrı-seçkiliyin və dözümsüzlüyün aradan qaldırılması səylərinə də kölgə salır. Beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi güdən bu qətnaməni birmənalı şəkildə ”Avropa demokratiyasının növbəti qürubu” adlandırmaq olar”.

Avropa demokratiyasını qürubu bu gün başlamayıb, 30 il bundan əvvəl, Ermənistandan azərbaycanlılar zorla qovulanda, Qarabağ və ətraf rayonların dinc əhalisi öz doğma yurd-yuvasından perik salınanda avropalıların heç nə olmamış kimi hadisələri sakitcə seyr etdiyi gün bu qitə əsl xristian sifətini, erməni təssübkeşi olduğunu açıq şəkildə göstərdi. Amma biz yenə Avropadan mədət umduq, düşündük ki, bəlkə keçmiş sovet respublikaları arasında baş verənlərdən xəbərləri yoxdur, informasiya qıtlığı çəkirlər. İllər ötdü, lakin Avropanın ermənipərəstliyi bitmədi, münaqişənin nizamlanmasına daha çox əngəl olmağa çalışdı, həqiqəti, ədaləti maraqlarına qurban verdi. Budur Avropanın sifəti, xisləti, iç üzü. İndi də Qarabağda erməni izi axtarır, guya erməni abidələrinin Azərbaycan tərəfindən məhv edildiyi barədə yalanlar tirajlayır. Mən hələ də inanmaq istəmirəm ki, Avropa bir dılğır Ermənistana görə Azərbaycanla düşmən olmağı gözə alsın, saxta millətin qondarma ittihamlarına şərik olsun.

”Geylər” ölkəsini - Hollandiyanı təmsil edən deputat, həm də Avropa Parlamentində ”Dağlıq Qarabağın mədəni irsinin məhv edilməsi” adlı qətnamə layihəsinin həmmüəllifi, o cümlədən Avropa Xalq Partiyasının üzvü Piter van Dalen adlı ikiayaqlı bildirib ki, ”Azərbaycan Dağlıq Qarabağın yerli sakinlərinin həyatını dözülməz edir, onlar təhlükə qarşısındadır”. Onun sözlərinə görə, ”Qarabağda hələ də çoxlu itkin düşmüş insanlar var, onlar haqqında heç nə məlum deyil. Dağlıq Qarabağın mədəni irsi dağıdılır, sistemli şəkildə məhv edilir. Kilsələr, tarixi binalar, abidələr, meydanlar dağıdılıb.

Beləliklə, Dağlıq Qarabağın mədəni irsi tamamilə məhv edilə bilər. Avropa Parlamenti bu məsələdə yekdildir. Biz hamımız razıyıq, açıq şəkildə deyirik ki, Azərbaycandakı zorakılığı pisləyirik, Bakı hökumətinin ermənilərə qarşı nifrətini də pisləyirik”, - deyən Peter van Dalen YUNESKO-nu vəziyyətin ciddiliyini yoxlamaq üçün Dağlıq Qarabağa missiya göndərməyə çağırıb.

Bəli, Qarabağın harada yerləşməsindən bixəbər olan Van Dalen ermənilərə qahmar çıxır. Bütünlüklə qərəzə bürünüb bu subyekt. Avropa belə deputatlarla hara qədər gedə biləcək, bunu söyləmək çox çətindir. Avropa Parlamentinin qətnaməsi Ermənistanın 30 illik işğal dövrü ərzində Azərbaycanın mədəni irsinə qarşı törətdiyi vandalizmi tamamilə inkar edir. İşğal dövrü Ermənistanın müharibə cinayətləri və insanlıq əleyhinə cinayətləri ilə müşayiət olunub. Ermənistan qəsdən şəhər və kəndləri dağıtmaqla yanaşı, Azərbaycan xalqının bu ərazilərdəki bütün mədəni irsini məhv edib. Coxsaylı tarixi, mədəni və dini abidələr, arxeoloji qazıntı məkanları, kitabxanalar və muzeylər, muzey eksponatları, nadir əlyazmalar, məzarlıqlar sistemli şəkildə viran qoyulub və talanıb. Məscidlər yerlə yeksan edilib, inək və donuz saxlanılan yerlərə çevrilərək, təhqir olunub. Yalnız İslam dininə aid abidələrə qarşı vəhşilik edilməyib. Alban və xristian kilsələri də dağıdılıb, onların üzərində arxitektur dəyişikliklər aparılmaqla erməniləşdirilməsinə cəhd göstərilib.

Bir tərəfdən Avropa İttifaqı Cənubi Qafqazda sülhyaratma prosesində yaxından iştirak etmək istəyir, digər tərəfdən isə bu birliyin parlamentariləri başqa havalar çalır, fərqli mövqe sərgiləyirlər. Belə görünür ki, ”Qoca Avropa” artıq tənəzzülə uğrayıb və başını itirib. Başı itənlərin, ağlı qaçanların isə yanımızda, regionumuzda , ölkəmizdə yeri yoxdur. Avropalılar tarixi, coğrafiyanı və ən əsası siyasəti öyrənməlidirlər. Onu da bilməmiş deyillər ki, avropalıların qəbul etdiyi qətnamələrin bizim üçün heç bir hüquqi əsası yoxdur, bu sənəd adi kağız parçasından başqa bir şey deyil.

***V.VƏLİYEV***

# Ukraynadakı müharibə ərzaq qiymətlərini 20 faiz bahalaşdıracaq?

***Rusiya-Ukrayna gərginliyi fonunda yaranacaq tədarük çatışmazlığı səbəbindən qlobal ərzaq və yem qiymətləri 8-20 faiz bahalaşa bilər. Bu da dünyada az qidalanan insanların sayını artmasına səbəb olacaq. SİA-nın əldə etdiyi məlumata görə, sözügedən mövzu barədə mərkəzi qərargahı Romada yerləşən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO məlumat yayıb.***

”Dünyanın əsas taxıl ixracatçılarından biri olan Ukraynadakı hazırkı vəziyyət taxıl məhsullarının biçinin qeyri-müəyyən olduğunu göstərir. İlkin qiymətləndirməyə görə, Ukraynada qışlıq taxıl, qarğıdalı və günəbaxan sahələrinin 20-30 faizi bu il əkilib-biçilməyəcək. Rusiyanın ixracı da beynəlxalq sanksiyalara görə azala bilər. Rusiya, həmçinin enerji resurslarının üstünlüyü ilə gübrə ixracında da dünyada birinci yerdədir. Rusiya və Ukrayna dünyanın ən mühüm kənd təsərrüfatı istehsalçılarıdırlar. Bu ölkələr arpa tədarükünün 19 faizini, buğdanın 14 faizini və qarğıdalının 4 faizini təmin etməklə qlobal taxıl ixracının üçdəbirini həyata keçirirlər”, - deyə FAO - BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesabatında deyilir.



# Torpaq çərşənbəsində bu qaydalara əməl edilməlidir - DİQQƏT!




Martın 15-i Novruz çərşənbələrinin sonuncusu Torpaq çərşənbəsidir. Xalq arasında "Yer çərşənbəsi", "İlaxır çərşənbə" də adlandırılan bu çərşənbə günü yer oyanır, torpaq nəfəs alır. Torpaq çərşənbəsində daha çox şənliklər və oyunlar keçirilir. Xüsusən küsülülər barışır, evlərdə üzərlik yandırılır, tonqallar qalanır, məşəllər yandırılır, bacalardan torbalar sallanır, qurşaq atılır, qulaq fallarına çıxılır. Yazın gəlişi ilə əlaqədar ilaxır çərşənbə axşamı həyətlərdə tonqal qalanır, insanlar odun üstündən hoppanırlar. Həm də tonqal üstündən atlanmaq köhnə ilin qada-balasını odda yandırmaq, yeni ilə qədəm qoymaq deməkdir. Bütün evlərdə bayram süfrələri açılır, cürbəcür yeməklər, əsasən aş, şirniyyatlar: paxlava, şəkərbura, şəkərçörəyi, şorqoğalı hazırlanır. Xonçanın ortasında səməni, hər ailə üzvünə şam, boyadılmış yumurtalar qoyulur. Süfrədə yeddi növ yemək - nemət olur. Bəs xalqımız ilaxır çərşənbəsini necə keçirdir? Torpaq çərşənbəsi ilə bağlı bilmədiyimiz hansı adət-ənənələr var? Bütün suallara cavab almaq üçün SİA mövzu ilə əlaqədar olaraq şəhər sakinləri arasında sorğu keçirib.

**Şəhər sakini elmira Hüseynova:** "Mən özüm Göyçay rayonundanam. Hər il Novruz bayramında biz öz rayo-



numuza gedib öncə evimizi təmizləyib daha sonra şirniyyat bişiririk. Bunlarla yanaşı xonça qururuq, yumurtalar bəzəyirik. Uşaqlar üçün tonqallar qalayırıq. Həmçinin axrıncı çərşənbədə müəyyən fallara baxılır. Rayonda qonşuluqda olan gəlin, qızlarımız fala baxırlar. Bir sözlə, sanki bu bayramda bütün təbiət və insanlarda canlanma hadisəsi baş verir".

**Şəhər sakini Ruhiyyə Əsgərova:** "Torpaq çərşənbəsi bizim ən axırıncı çərşənbəmizdir. Bütün xalqımızı bay-



ram və çərşənbə münasibəti ilə təbrik edirəm. Biz hər il bayramda qohumlarımızla görüşürük. Bayram günü də bütün ailəmiz bir arada olur. Maraqlı söhbətlər və oyunlar oynayırıq. Bütün dünyaya müharibəsiz, savaşsız bir il arzulayıram. Çərşənbələrimiz daima uğurlu olsun. Bütün ailələr ürəkləri istədikləri kimi bayram keçirsinlər".

**Şəhər sakini Əhliman Abdullayev:** "Mən bütün xalqımızı ilaxır çərşənbə və Novruz bayramı münasibət



ilə təbrik edirəm. Rəbbim bütün insanlarımızı qorusun. Mən bayram günlərində nəvələrimi başıma yığıb onlara tonqal qalayıram. Uşaq olduqları üçün bütün adət-ənənələrimizi maraqla qarşılayırlar. Onun üçün bütün qaydaları onlara əyanı şəkildə göstərmək üçün hər bir şeyi özüm edirəm. Allah bütün balalarımızı qorusun".

**Şəhər sakini Dağlar Quliyev:** "Hər bir bölgə özünəməxsus Novruz bayramını qarşılayır. Mən Qərbi Azərbaycanlıyam, bizim bölgədə hər çərşənbə özünəməxsus şəkildə qeyd olunur. Hər



çərşənbədə torba atılır, tonqal qalanır, böyüklərlə görüşə gedilərdi. Çünki bu bayram bizim xalqımıza aiddir. Təbiətimizdə də bu bayramın gəlişi hiss olunur. Torpaq canlanır, çiçəklər açır və s. Bayram münasibəti ilə də bütün həmvətənlilərimizi təbrik edirəm".

**Şəhər sakini Kamil Haqverdiyev:** "Məncə bayramlar və çərşənbələr əvvəl daha gözəl formada keçirilirdi. Hamıda bayram əhval-ruhiyyəsi hiss olu-



nur. Lakin indi sanki hamı sönüb. Bunun təbii ki, bir çox səbəbləri var. Amma biz uşaq olanda bayramla bağlı nə qədər adət-ənənələrimiz varsa hamısı bir-bir həyata keçirilirdi. O zamanlar hamı bu günləri səbirsizliklə gözləyirdi".

**Şəhər sakini Rauf Abuşov:** "Mənim içimdə bayrama qarşı olan sevgi uşaq vaxtı necə idisə, indi də eyni şəkildə davam edir. Misal olaarq sabah üçün tonqalın taxtalarını artıq indidən yığmışam. Sabah da həmin taxtalar-



dan tonqal qalayacağam. Deməl olar ki, elə hər il məhləmizdə mənimlə bərabər bir neçə dostumda kömək edir, tonqalı qururuq. Məncə, bayramla bağlı adət-ənənələrimiz məşhurdur ona görə də, hamı bunlardan xəbərdardır. Bir daha bütün xalqımızın bayramını təbrik edirəm. Hamıya xoşbəxtlik arzu edirəm. Bu il hamımız üçün düşərli olsun".

**Şəhər sakini Əkbər Babayev:** "Novruz bayramı çox gözəl bayramlarımızdan biridir. Düzdür, bayramlar keçmiş zamanlarda daha gözəl keçilsə də,



həmin hadisələr artıq yavaş-yavaş öz aktuallığını itirir. Məncə, bunun da əsas səbəbi inkişaf etməmizlə bağlıdır. Hər bir ailə öz uşaqlarını bayramla bağlı məlumatlar versə və keçmiş zamanlardakı bayram qanunlarımızdan danışsa bu adət-ənənələrimiz sıradan çıxmaz".

***Banuçiçək Hüseynli***

# Torpaq anamın ilkidir

*ESSE*

Torpağı anam doğub. O, anamın ilkidir. Gözünün ilk ovudur. Mənim, sənin, onun böyük bacı-qardaşıdır. Anam onu hamımızdan çox sevir, əzizləyir. Görəsən nə üçün? Axı ana övladları arasında ayrı-seçkilik qoymamalıdır. Elə buna qısqanclıq edib ağlayıb-sızlayanda anam bizlərə deyir:- beş barmağım var, gəl hər birini kəs, gör hansından qan çıxmayacaq? Hələ üstəlik bunu da deyir ki, özün ana olanda görəcəksən ki, övladlar arasında ayrı-seçkilik qoymaq olmur.

Bəs görəsən nə üçün hər dəfə anamın Torpağı bizdən artıq sevdiyini hiss edirəm. Axı bunu hiss etmək o qədər də çətin deyil. Nə olsun ki, anam bunu etiraf etmir. Mən adım kimi əminəm bu məhəbbətə. Axı hər şey göz qabağındadır. Hər dəfə bir işi görəndə də öz-özünə Torpağı züm-zümə edir anam: "-Canım torpağım, gözüm torpağım, sənsiz elim-günüm olmaz, sənsiz ömrüm-günüm olmaz. Sənsiz Vətənim olmaz, qərib olaram, qan ağlaram, xiffət edərəm, vərəmlərəm. Qara gözlüm, şirin sözlüm..."

Bunları kim öz qulağıyla eşitsə, anamın hamımızdan çox Torpağı sevdiyini zənn etməz? Kədərlənəndə də Torpaq deyib, durur, şirin-şirin acı bayatılar söyləyir. Qəribədir, anasını itirəndə də Torpağı əzizləyirdi; "-Ay qara gözlum, ay sinəsi sərin, ay ulu babalarımın qonaqçısı, ay evi gen, indi də anamımı qonaq apardın?"

Anamın dodaqaltı belə söyləmələrinin dəfələrlə şahidi oluram. Gözlərinin düz içinə baxıram, sanki hər dəfəki sualıma yenə də cavab axtarırmış kimi: "-Bəs deyirdin, Torpaqla sizin aranızda ayrı-seçkilik qoymuram?". Anam bu sualı gözlərimdən oxuyurmuş kimi gözəl gözlərinin nəzərlərini gözlərimizən yayındırır. Yox, anamda bir sirr var. Bu sirr məni için-için yeyir. Bu nə sevdadır, bu nə məhəbbətdir Torpağa qarşı.



Yenə də hər birimiz qısqanclıq içərisindəyik. Torpaq yanımızda olmayanda bu mövzunu bacılarımla-qardaşlarımla çox müzakirə edirik:- Axı anamın Torpağa qarşı bu qədər sevgisi nə deməkdir. Böyük bacım deyir, mən haradasa oxumuşam ki, bir-birini sevən iki gəncin ilk övladı onların sevgilərinin simvoludur, bəlkə buna görədir? Böyük qardaşım deyir, mən eşitmişəm ki, qadını ana edən ilk uşaq həmişə sevimli olur. O biri bacım deyir ki, mən də eşitmişəm ki, uşaq ana-ata arasında körpüdür, bəlkə anam atamla arasındakı körpünü tək Torpaqla görür. Balaca bacım deyir ki, mən sizlərin fikri ilə razı deyiləm, mən sonbeşiyəm, anam məni hamıdan çox sevir. Onun sözünə heç birimiz əhəmiyyət vermirik, könlünü də qırmırıq. O, hələ elə düşünür, amma biz hamımız bu fikirdəyik ki, anamız Torpağı hamımızdan çox sevir.

İllər ötür, böyüyürük. Elə həmin qısqanclıqla, elə həmin tərəddüdlərlə yaşa doluruq. Ana oluruq. Bəli, dərk edirik ki, insan övladları arasında fərq qoya bilməz. Bir iş görəndə biz də züm-zümə edirik, eynilə anamız kimi. Bir sıxıntımız olanda biz də laylalar deyirik, eynilə anamız kimi. Bizim də övladlarımız ilkimizi qısqanır, eynilə biz Torpağı qısqandığımız kimi.

İndi mən anlayıram mənim, sənin, onun qısqanclığının səbəbini. İndi mən anlayıram mənim, sənin, onun anasının Torpaq sevdasını, torpaq sevgisini, torpaq məhəbbətini. Axı mən də anayam. Mənim də ilkim Torpaqdır. Bəli, böyük bacımın dediyi kimi, ilkim mənim məhəbbətimin simvoludur. Böyük qardaşım düz bilirmiş, ailənin ilki ata-ana arasında körpüdür. Tək balaca bacımın söylədiyi fikirlə yenə də razılaşmıram. Çünki sonbeşikdən çox sevilir ilk beşiyə qoyulan. O, da Torpaqdır. Mənim, sənin, onun ilki. İlkimizsiz bir heçik. Elimiz-günümüzdür ilkimiz. Xoşbəxtliyimiz, xoş günümüzdür ilkimiz. Ata-babalarımıza qoynunda yer verib, onları qoruyan dünənimizdir. Bizi Vətənli-dili uzun, sözü kəsərli edən bu günümüzdür ilkimiz. Qoynunda daimi bir mənzil tikib uyuyacağımız sabahımızdır ilkimiz. Zaman-zaman hər bir ananın övladı qısqanacaq anasının ilkini. O vaxta qədər ki, özü ana olub, ilkini-Torağını dünyaya gətirə. Beləliklə, sonsuzluqlara uzanan bir sevda yaranır-Torpaq sevdası. Bitib-tükənməyən bir sevda.

***Mətanət Məmmədova***

# Baharın gəlişini müjdələyən "İlaxır Çərşənbə"

## Yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramı

**Xalqımızın milli-mənəvi irsini özündə təcəssüm etdirən Novruz yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramıdır. Novruz fəlsəfəsi cəmiyyətdaxili münasibətləri tənzimləyən, insanlar arasında səmimiyyəti, dialoqu önə çəkən yüksək dəyərləri ehtiva edir. Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü, adət-ənənələrini özündə yaşadır.**

Novruz sözünün etimologiyasına diqqət etsək, görərik ki, bu sözün həqiqi mənası yeni günün başlanması deməkdir. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş su, od, yel və torpaq çərşənbələri qeyd olunurdu. Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Dörd çərşənbənin qeyd olunmasının arxasında həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə ələqədardır.

Novruz bayramı təbiətlə bağlı su, od, torpaq, yel ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edən bəşəriliyilə seçilir. Novruzaqədərki yaxın 4 həftənin 2-ci günlərini-çərşənbələri ulularımız Su, Od, Yel və Torpaq Çərşənbəsi adlandırmışlar. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Bu gün qeyd etdiyimiz xalq arasında torpaq çərşənbəsi "İlaxır Çərşənbə", "Yer Çərşənbəsi", "Çərşənbə-Suri" kimi də adlanan sonuncu çərşənbəmizi qeyd edirik. Torpaq çərşənbəsində torpağa istilik gəlir və bütün təbiət oyanmağa başlayır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da baharın gəlişindən xəbər verir. Torpaq çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə ələqədardır. Dörd ünsürdən sonuncunun oyanması ilə Sel, Atəş, Yel və Torpaq daha böyük güc alır. İnsanlar yoxsulluq və qıtlıqdan, çətinlik və məhrumiyyətdən xilas olurlar.

Axır Çərşənbə mərasim, ayin, etiqad, oyun və şənliklərlə daha çox zəngindir. Bu Çərşənbədə əvvəlki çərşənbələrdə icra olunan bütün ayinlər kütləvi xalq şənlikləri ilə qeyd olunur. Şənliklər sübh tezdən suya tapınma ayini ilə başlanır. Adamlar su üstünə çıxıb, su üstündən atdanaraq, dərdini, arzusunu suya danışıb, ondan imdad diləyirlər. Gün ərzində müxtəlif ayinlər keçirilir. Axır Çərşənbənin axşamı şənliklər daha da gücələnir. İnsanlar tonqalın üstündən atılıb ağrıacılarının oda tökülməsini arzu edirlər: "ağırlığım, qadam-balam tonqalda yansın". Burada məqsəd qışdan qalan dərdin, ağrı-acının adamın canından çıxması, insanın sağlam ruhla, saf qəlblə bayrama qovuşmaq istəyidir.Qulaq falına çıxmaq, qapılara kisə və papaq atmaq bu bayramın tərkib hissələridir. Küsülüləri barışdırmaq, xəstələrə baş çəkmək, körpələrə yeni libas almaq da bu bayrama aid xüsusiyyətlərdəndir.

Torpaq Çərşənbəsinə həm də Niyyət, Dilək Çərşənbəsi deyilir. İnanca görə, həmin gün ürəkdə tutulan xoş diləklərin hamısı hasil olur. Həmin gün mütləq xoş sözlər danışılmalıdır. Axı kimsə qulaq falına çıxıb, qapıya gələ bilər. Çərşənbə axşamı ailədə könül açan sözlər danışar, dava-dalaş etməzlər ki, qulaq falına çıxan şəxs xoşagəlməz ifadələr eşitməsin və evlərinə şən əhval-ruhiyyə ilə qayıtsın. Süfrənin əsas bəzəyi al-əlvan boyadılmış şadlıq rəmzi olan yumurta bir də baharın gəlişini əks etdirən Səmənidir.Novruz bayramı azərbaycanlıları Vətənə, ata-baba yurdları Azərbaycana, milli köklərə daha sıx bağlayır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlər, mütərəqqi adət-ənənələr cəmiyyətdə daha möhkəm əsaslarla intişar tapır, bu sıradan da xalqın milli bayramı olan Novruz yüksək səviyyədə qeyd edilir.Baharın gəlişini müjdələyən, xalqımızın qədim tarixə malik milli bayramı olan Novruzun Son Çərşənbəsi - "İlaxır Çərşənbə" bu gün böyük ruh yüksəkliyi ilə qarşılanır.



### NOVRUZUN ƏN YÜKSƏK ZİRVƏSİ KÖHNƏ İLİ TƏZƏ İLİN ƏVƏZLƏNMƏSİDİR

Minilliklərin sınağından çıxaraq, bu günə gəlib çatmış Novruz bayramını hələ Azərbaycan xalqı Sasanilər dövlətinin tərkibində olduğu zaman qeyd edib. Daş dövrünə aid olan əşyalar qazıntılar zamanı əldə olunan mənəvi mədəniyyət abidələrimiz Novruz bayramının qədim tarixi olduğunu təsdiqləyən amillərdir. Azərbaycan klassikləri olan Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Əfzəleddin Xaqani kimi dahilərimiz baharın gəlişini əks etdirən nümunələr yaratmışlar. Novruz bayramının yaranması tarixinə həsr olunmuş yazılardan Nizamilmülkün "Siyasətnamə"sini, Ömər Xəyyamın "Novruznamə"sini və başqalarını nümunə olaraq göstərmək mümkündür.

Novruzun ən yüksək zirvəsi köhnə ili təzə ilin əvəzlənməsidir. Bu zaman ənənəyə görə, Novruzun şərəfinə top və tüfənglərdən yaylım atəşləri açılır. Hələ ötən əsrlərdə N.Dubrovin bu haqda belə yazmışdır: "Azərbaycanda baharın gəlməsini şəhər və kəndlərdə açılan yaylım atəşləri bildirirdi". Azərbaycanda Novruz bayramı təntənəsinin iştirakçısı olan Adam Oleari 1637-ci ildə Şamaxı haqda yazırdı: "Münəccim tez-tez arxasından qalxaraq, astronomik cihaz və günəş saatı vasitəsilə günəşin hündürlüyünü təyin edərək, gündüzlə gecənin bərabərlişdiyi anda elan etdi: "Təzə il gəldi" və elə bu anda yaylım atəşləri başlandı, şəhərin qüllələrindən və divarlardan musiqi sədaları ucaldı. Bahar bayramı başlandı."

Dövlətin milli-mənəvi dəyərlərimizə olan münasibəti onun prioritet istiqamələrdən biri olaraq qarşıya qoyduğu məsələlərdəndir. Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasəti, islami dəyərlərə yeni prizmadan baxış kimi meyilləri ictimai düşüncənin formalaşmasında özünü göstərir. Bu amillər zaman-məkan kontekstində həllini tapmaqdadır. Dünyada gedən qloballaşma və inteqrasiya prosesində ölkəmiz uğurlu gələcəyi təmin etmək üçün tarixi köklərimizə söykənir. Azərbaycan dövləti tərəfindən qarşıya qoyulan siyasət özündə bu və digər məsələləri ehtiva edir.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqa göstərdiyi yüksək qayğısı Azərbaycan milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədinə istiqamətlənmişdir. Xalqın etnik tarixi inkişafı bir çox maddi və mənəvi amillərlə tənzimlənən mürəkkəb bir prossesdir. Son illərdə Azərbaycanın milli-mənəvi mədəniyyətinin tarixi mənzərəsinə nəzər salaraq, onun əsas inkişaf vasitələrini üzə çıxarmağa çalışsaq, hər şeydən əvvəl, mövcud amillərin rol oynadığını görərik.

Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır.

Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır.

Təbii ki, islam dininin də mənəvi dəyərlərimizin inkişafındakı rolunu qeyd etmək vacibdir. İslam dini təmizlik, düzlük, insanlıq, kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərdir. Bütün bunların kontekstində Azərbaycan vətəndaşının varlığı göstərilir. Uzun illərin yolu və əsrlərin, qərinələrin sorağı bizi bu ənənələrə bağlamış, dövrümüzə körpü salmışdır. Müasir insanın formalaşması və özünü təsdiqi, məhz milli-mənəvi dəyərlərin aşılanması prosesi ilə bağlıdır.

Bütün həyatını Azərbaycan xalqının rifahına və çiçəklənməsinə sərf etmiş Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyevin sovet hakimiyyəti illərində Azərbaycana birinci rəhbərliyi dövründə xalqımızın yaddaşında özünə yuva qurmuş Novruz bayramı milli-mənəvi xüsusiyyətləri və dəyərləri özündə əks etdirməklə, dövlət səviyyəsində qeyd edilmiş, bununla da imperiyanın sərt qadağalarına baxmayaraq, milli bayramımız qorunaraq, nəsillərdən-nəsillərə ötürülməklə saxlanılmışdır. Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra, xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyevin bilavasitə səyləri nəticəsində Novruz bayramı dövlət bayramı elan olunmuş, şəxsən Onun iştirakı ilə milli bayramımız ümumxalq şənlikləri çərçivəsində yüksək təmtəraqla qeyd edilmişdir.

Ümummilli Liderimiz Heydər Əliyevin adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunması sahəsində fəaliyyətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin göstərişi və tapşırığı əsasında hər il dövlət və milli bayramlarımız, xüsusilə, Novruz bayramımız ildən-ilə daha yüksək təmtəraqla qeyd edilərək, xalqımızın silinməz yaddaşına həkk olunmaqdadır. Novruz şənliklərində ölkə rəhbərliyinin şəxsən iştirak etməsi bayram təntənələrinə əlavə rəng qatmaqla yanaşı, eyni zamanda, hakimiyyət-cəmiyyət münasibətlərinə müsbət təsir edir. Azərbaycanda Novruz günlərində bu cür ümumxalq bayramlaşmasının ənənəsini Ulu Öndər Heydər Əliyev qoyub.

Ümummilli Lider Heydər Əliyevin ideyalarının qorunması və davam etdirilməsində rolu olan Heydər Əliyev Fondunun da bu istiqamətdəki məqsədyönlü fəaliyyətini qeyd etməliyik. Fondun sədri YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyaya inteqrasiya olunmasında böyük əhəmiyyətə malikdir. Heydər Əliyev Fondu ölkənin mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə Ümumilli Liderin zəngin irsindən bəhrələnərək, bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına nail olur. Azərbaycanın məxsusi dəyərlərinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı planlı işlər həyata keçirir.

## BEYNƏLXALQ NOVRUZ GÜNÜ ELAN EDİLMƏSİ MİLLİ ADƏT-ƏNƏNƏLƏRİMİZİN DÜNYƏVİLİYİNİ, BƏŞƏRİLİYİNİ TƏSDİQLƏDİ

Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərən fond dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstəkdir və beynəlxalq mahiyyət kəsb edən layihələrdə təsdiqini tapır. Bu istiqamətdə görülən işlər beynəlxalq səviyyədə Azərbaycan milli dəyərlərinin qorunması və tarixi irsimizə sahib olmaq istəyində olan mənfur simaların qarşısına bir sədd çəkir. Qloballaşma şəraitində aparılan işlər milli-mənəvi dəyərlərin dünyaya inteqrasiyasına yollar açır. Belə bir şəraitdə Azərbaycan Respublikasının Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən tədbirlər ölkəmizin dünya ictimaiyyətinə tanıdılması, xalqımızın maddi-mənəvi irsinin, milli adət-ənənələrinin təbliği sayəsində atılan ciddi addımlardır. 2010-cu il 23 fevralda BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. Novruz bayramının YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsi və Beynəlxalq Novruz Günü elan edilməsi milli adət-ənənələrimizin dünyəviliyini, bəşəriliyini, ona irqindən, dinindən asılı olmayaraq, bütün millətlərin maraq göstərməsini təsdiqlədi. Bu, Azərbaycanın tarixiliyini, özünəməxsusluğunun dünyada işıqlandırılmasına və irsin bəşəriliyini ifadə edən faktor kimi ortaya qoyulması ilə səciyyələndi. Beynəlxalq çərçivədə qəbul edilən Azərbaycan milli xəzinəsi dünyanı təəccübləndirmək iqtidarındadır.










Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Görülən işlərin davamı olaraq, "Azərbaycanın qeyri-maddi mədəni irs subyektlərinin informasiya bankının yaradılması" haqqında əmr də mənəvi dəyərlərimizə bir dəstəkdir. Bunun əsasında yaradıcı nailiyyətləri özündə əks etdirən xüsusi portfoliolar yaradılıb. Portfolioların yaradılmasında məqsəd Azərbaycanın milli-mənəvi dəyərlərinin beynəlxalq aləmə inteqrasiyası, qeyri-maddi mədəni irsinin dünyada tanıdılmasıdır.

Dünyanın qabaqcıl ölkələrinin mədəniyyət siyasəti sahəsindəki təcrübələri nəzərə alınmaqla Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, bərpası, xalq yaradıcılığının təbliği istiqamətlərində islahatlar uğurla davam etdirilir.

Beynəlxalq ictimaiyyətin diqqət və maraq mərkəzində olan, Azərbaycan xalqının adət və ənənələrini, milli-ənənəvi xüsusiyyətlərini özündə əks etdirən, soydaşlarımıza və ölkə vətəndaşlarımıza sevinc bəxş edən Novruz bayramı dövlət səviyyəsində qeyd olunur.

## İŞĞALDAN AZAD OLUNAN TORPAQLARIMIZDA ÇƏRŞƏNBƏMİZİ QEYD EDİRİK

Bu gün sevindirici və qürurverici bir haldır ki, xalqımız Novruz bayramını işğaldan azad olunan ərazilərimizdə, əzəli torpaqlarımızda qeyd edir. Tonqalımız qalanır, el-obamız bayramı qaşılayır. Qəlblərdə sevgi, torpaqda atəş yaşanır. Bu gün sonuncu çərşənbəni Torpaq Çərşənbəsini qeyd edirik. İllərdir arzuladığımız və bu gün böyük məsləkimizə qovuşduğumuz torpaqlarımızın işğaldan azad olunduğu torpaqlarımızda çərşənbəmizi qeyd edirik. Novruz ənənələri yenidən 30 ilə yaxın həsrətində olduğumuz doğma torpaqlarımızda yaşanılır, tonqallar qalanır, od-alov aləmə yayılır. Torpağımıza isti nəfəs gəlib, torpaq həsrətlə gözlədiyi sevincinə qovuşub. Torpaqlarımız dərindən nəfəs alır. Tarixdən boylanan zamanın daşlaşmış yaddaşında olan təbiətdən gələn yeni günü Qələbə tarixini yaşamış xalqımız böyük sevinclə qarşılayır. Bu gün Novruz bayramının astanasındayıq. İlin ən gözəl zamanının...

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP-ın VII qurultayı cəmiyyətin Zəfər qürurunu yaşadığı bir vaxtda olduqca gərəkli vəzifələr müəyyənləşdirdi

2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsindən bir il ötür. Ötən bir il ölkəmizin də həyatında mühüm tarixi məqamlarla yadda qalıb. Ən əsas məqam isə, ötən dövrdə Azərbaycanın əsas hədəfləri işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinin miqyasını genişləndirmək, Böyük Qayıdışı reallaşdırmaq. Azərbaycan Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərlə Azərbaycan xalqının, eyni zamanda, Yeni Azərbaycan Partiyasının ən mürəkkəb və ən çətin, ancaq həm də ən ali məqsədini reallaşdırmış oldu. Azərbaycan möhtəşəm qələbə qazanaraq həm tarixi ədalətin, həm də ərazi bütövlüyünün bərpasına nail oldu. Başqa cür də ola bilməzdi. Çünki Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yaranan YAP ölkəmizin, xalqımızın həyatında olduqca təsirli rol oynaya biləcəyini qısa zaman kəsiyində inamla nümayiş etdirdi. Bu gün Ulu Öndər Heydər Əliyev siyasi irsini yaşadaraq həm dövlətə, həm Yeni Azərbaycan Partiyasına rəhbərliyi dövründə milli inkişaf və maraqlarımızın qorunması istiqamətində yorulmadan fəaliyyət göstərən Prezident cənab İlham Əliyev ölkəmizi yeni bir keyfiyyət mərhələsinə yüksəltdi. Və VII qurultayın keçirilməsini isə başlıca olaraq, tam yeni reallıqların yaranmasını zəruri etdi. Bu reallıqların yaranması isə, cənab Prezidenti İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası iqtidarının praqmatik düşüncəyə, strateji baxışlara söykənərək həyata keçirdiyi fəaliyyətin nəticəsidir. Ölkə Prezidenti YAP-ın VII qurultayında çıxışı zamanı demişdir: "Yeni vəziyyət yaranmışdır, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqları yaradan ölkəyik. Bundan əvvəlki dövrlərdə də bizim təşəbbüslərimizlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatını şərtləndirdi. İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır. Bölgədə yeni əməkdaşlıq imkanları yaratmışdır. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb."



Eldar Əsədov,
YAP Tərtər rayon təşkilatının sədri

Təsadüfi deyil ki, Prezident İlham Əliyev cənabları qurultaydakı nitqində vurğuladı. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev VII qurultayda giriş nitqinə də məhz Vətən müharibəsində qazanılan Qələbə barədə fikir bildirməklə başladı: "Partiyamızın VI qurultayından üç il ötür. Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Daha bir mühüm amil isə, Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edilməsi oldu. Partiyanın yeni Nizamnaməsi təsdiq edildi, YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı, qərarlar verildi. Onu da qeyd etmək yerinə düşərdi ki, partiyanın əvvəlki Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Lakin buna baxmayaraq, ötən dövr ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə və irəliləyişlərə imza atıb. Eyni zamanda, yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII qurultayında təsdiq edilən yeni Nizamnamədə öz əksini tapıb. Bütövlükdə isə, bütün bu kimi uğurlu addımlar partiya həyatında daha çevik idarəetmə mexanizminin formalaşdırılmasına stimulları verdi.

Göründüyü kimi, tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası yarandığı gündən xalqın partiyası olduğunu göstərdiyi kimi, 44 günlük vətən müharibəsində də Müzəffər Ali Baş Komandan, Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev və Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitləri ilə birlik nümayiş etdirərək 30 illik torpaq həsrətinə son qoyulmasına, haqq, ədalət, ərazi bütövlüyümüz bərpa olunmasına öz layiqli töhvələrini vermişdir. Və Partiyanın bir il əvvəl - 5 mart 2021-ci il tarixdə keçirilmiş VII qurultayında qəbul edilmiş qərarlar və ondan sonra həyata keçirilən tədbirlər bir daha göstərdi ki, ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasında, təkmilləşməsində siyasi təşkilatın rolu və yeri xüsusidir. Dünənin, bu günün və gələcəyin partiyasının VII qurultayı siyasi təşkilatın tarixində növbəti dönüş nöqtəsi, yeni inkişaf mərhələsinin başlanğıcı oldu. Qurultay zamanı ölkədə fəaliyyət göstərən 6 siyasi partiyanın Yeni Azərbaycan Partiyasına qoşulması barədə müraciətləri öz müsbət həllini tapdı. Yeni Azərbaycan Partiyasının VII Qurultayında qəbul olunmuş qərarlar partiyanın fəaliyyətində keyfiyyət etibarı ilə əhəmiyyətli dəyişikliklərə səbəb oldu. VII Qurultayda YAP-ın yeni Nizamnaməsi təsdiq olundu və Yeni Nizamnaməyə əsasən, Qurultay Partiyanın Sədri, İdarə Heyəti və Təftiş Komissiyası partiyanın orqanları qismində müəyyən edildi. Partiya Sədrinin birinci müavini vəzifəsi təsis edildi, həmçinin Partiyanın strukturuna Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatın, yerli təşkilatların və onların aparatlarının daxil olduğu təsbit edildi. VII Qurultayda İdarə Heyəti, Təftiş Komissiyası və Veteranlar Şurasının say tərkibi müəyyən edilmiş, İdarə Heyəti və Təftiş Komissiyasının üzvləri, Veteranlar Şurasının üzvləri, sədri və sədr müavini seçilmişdir. Qurultayda Partiyanın yeni Proqramının hazırlanması və qəbulu barədə qərar qəbul olunması ilə Partiyanın daha təkmil idarəetmə formasını müəyyən etdi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Partiya sədrinin birinci müavini, həmçinin digər müavini və Partiyanın Mərkəzi Aparatına rəhbərlik edəcək müavini təyin edildi. Eyni zamanda, Partiyanın Mərkəzi Aparatının strukturunun təsdiq edilməsi haqqında Partiya sədrinin sərəncamı imzalandı. Digər bir məqam isə, peşəkarlıq, dövlətçilik və vətənpərvərlik YAP-da aparılan yeni kadr siyasətinin əsas meyarlarıdır. Məhz bu amillər nə2021-ci il sentyabr 10-da və 2022-ci ilin yanvarın 28-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclaslarında YAP-ın 76 yerli təşkilatının sədrləri vəzifəyə təyin edildi. Bununla da 76 yerli təşkilatın 48-də yeni sədrlər təyin olundu.

Beləliklə, xalqın böyük etimadını, inamını qazanan partiyanın VII qurultayı ölkə Prezidenti İlham Əliyevin praqmatikliyi və uzaqgörənliyi sayəsində bütün sahələrdə həyata keçirilən sistemli, ardıcıl islahatlar fonunda ölkədə yeni siyasi mühitin milli və siyasi həmrəyliyin formalaşdığının nümayişi oldu. Və bu gün qürurverici haldır ki, hər zaman siyasi proseslərin önündə olan hakim partiya 30 illik yubileyinə də daha fəal və mətin addımlarla qədəm qoyur.

Bir sözlə, bütün bunlar sübut edir ki, Yeni Azərbaycan Partiyası qarşıda duran məqsədlərə yol açan dünənin, bu günün və gələcəyin partiyasıdır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq: "Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir".

# "Görüş Türkiyə-Azərbaycan müttəfiqliyini daha da dərinləşdirəcək"

"Azərbaycan Prezidenti İlham Əliyevin qardaş Türkiyəyə səfəri dünyada və regionumuzda baş verən mürəkkəb geostrateji proseslər kontekstində baş tutdu. İstər regional, istərsə də qlobal siyasi proseslər baxımından diqqətçəkici olan bu səfər hər şeydən öncə dünyada formalaşmaqda olan yeni geostrateji arxitekturada Türkiyə və Azərbaycanın yerinin və rolunun müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.



Onun sözlərinə görə, bu gün Yaxın Şərq və postsovet məkanında hibrid və vəkalət müharibələrinin alovlandığı bir vaxtda Türkiyə və Azərbaycanda sülh və əmin-amanlığın mövcud olması hər şeydən öncə Prezident İlham Əiyev və Prezident Rəcəb Tayyib Ərdoğanın müstəsna liderlik keyfiyyətləri ilə bağlıdır: "Cənab Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aldıqları mühüm strateji qərarlarla 21-ci əsr türk tarixinə öz möhürlərini vurmuş liderlər kimi düşüb. Məhz alınan kritik qərarlar bu gün Cənubi Qafqaz kimi mürəkkəb regionda sülhün və əməkdaşlığın inkişafı üçün yeni şərtlər formalaşdırıb. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri və bu səfər çərçivəsində iki ölkənin qarşılıqlı maraqları çərçivəsində bütün məsələlərin müzakirə edilməsi hər iki ölkənin təhlükəsizliyi və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir.

Görüşün 4 saatdan çox davam etməsi yeni dünya nizamında iki qardaş ölkənin oynayacağı rolun koordinasiya edilməsi, çoxqütblü beynəlxalq sistemdə strateji müttəfiq olaraq onların yerinin və rolunun müəyyən edilməsi ilə zəruri idi. Hazırda dünyada baş verən mürəkkəb proseslər kontekstində milli dövlətlərin öz təhlükəsizliyini təmin etməsi olduqca çətin bir vəzifəyə çevirilib. Hazırda etnik və demoqrafik baxımdan yaxın olan xalqlar belə biri digəri üçün təhlükə və təhdid kimi görülür. Ancaq türk dünyasının tarix boyu yetişdirdiyi ən böyük liderlərdən olan İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan qəbul etdikləri strateji və uzaqgörən qərarlarla iki qardaş ölkənin təhlükəsizliyinin təmin edilməsi kimi mühüm tarixi vəzifənin öhdəsindən layiqincə gəlirlər. Hazırda ortaq etnik kökdən, ortaq mədəniyyətdən və siyasi keçmişdən gələn xalqların bir-biri ilə amansız müharibə apardığı bir vaxta Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı bir möcüzədir. Bu möcüzənin müəllifləri isə iki qardaş ölkənin prezidentləridir. İndi son bir neçə ildə baş verən hadisələrə bir daha diqqətlə nəzər saldıqda Şuşa bəyannaməsinin nə qədər vaxtında və yerində imzalanmış bir müttəfiqlik sənədi olduğunu aydın görmüş oluruq. Bu sənəd mümkün bütün təhdid və təhlükələrə qarşı iki qardaş ölkənin gücünü birlikdə səfərbər edərək öz təhlükəsizliklərini qorumaq üçün mühüm hüquqi təminat yaradır. Şübhəsiz ki, Azərbaycanın böyük uzaqgörənliklə vaxtında aldığı qərarlar bugünkü müttəfiqliyimizin iqtisadi və geostrateji əsaslarını təşkil edir. Əgər, vaxtında Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi kimi mühüm strateji layihələr həyata keçirilməsəydi, milli gücümüzün iqtisadi komponetləri bu qədər zəngin olmazdı. Əldə etdiyimiz tarixi zəfərimizdən sonra isə bu layihələrin davamı olaraq Zəngəzur dəhlizinin açılması zəruri şərt kimi ortaya çıxır. Bu dəhlizin açılması bütün region ölkələrinin strateji maraqları çərçivəsindədir ki, bu da Azərbaycanın həyata keçirdiyi strateji diplomatiya sayəsində mümkün olub. Ona görə də əminliklə deyə bilərik ki, Ankarada keçirilən görüş Türkiyə-Azərbaycan müttəfiqliyinin daha da dərinləşməsi və regionumuzda sülhün davamlı olması baxımından mühüm əhəmiyyət kəsb edəcək".

*Arzu Qurbanzadə*

# Gələcəkdə Şuşaya turist axını olacağı gözlənilir

"Bu il ərzində ölkə başçısı cənab İlham Əliyev "Şuşa ili"nin qeyd edilməsi ilə bağlı bir çox sərəncamlar imzalayıb. Əslində bu sərəncamlar kompleks tədbirlərdir. Bunun əhəmiyyəti Şuşanı dünya miqyasında tanıtmaq, onun bərpasını həyata keçirmək, müəyyən müddət ərzində şuşalıları öz doğma yurdlarına qaytarmaqdan ibarətdir". Bu sözləri SİA-ya açıqlamasında "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi"nin rəhbəri Samir Hümbətov deyib.

Onun sözlərinə görə, təbii ki, bugünkü gündə Şuşanın bəzi kəndləri rus sülhməramlıların nəzarəti altındadır və tam şəkildə o əraziləri Azərbaycana təhvil verməyiblər: "Şuşa şəhərində bərpa işləri aparılır. Məlumatlara əsasən, şəhərin tarixiliyinin özünə qaytarılması qənaətinə gəlmək olar. Eyni zamanda Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri Samir Nuriyev və Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun iştirakı ilə Şuşada hökumət tədbiri keçirilib. Bu isə burada yüksək səviyyəli tədbirlərin keçirildiyinin göstəricisidir".

Samir Hümbətov sözlərinə belə davam edib: "Ölkə başçısı İlham Əliyevin, həmçinin Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın dəfələrlə Şuşaya səfəri bu şəhərin Azərbaycan üçün həm siyasi, həm strateji, həm də tarixi əhəmiyyətini göstərir. Gələcəkdə Şuşa turist axını olacağı gözlənilir. Oradakı ev muzeyləri, tarixi abidələr getdikcə bərpa edilir və bu da şəhərin tarixi əhəmiyyətini daha da artırır. Cənab Prezidentin "Şuşa ili" ilə bağlı imzaladığı sərəncamlar ümumiyyətlə, Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında həlledici addımlardan biri ola bilər. Bu da bütün dünyada siyasi, mədəni və iqtisadi baxımdan özümüzü təsdiq etməkdə mühüm rola malikdir".

*Ayşən Vəli*





# NÜANSLAR

## Bəzi iş yerlərində xanımlara niyə başqa gözlə baxılır?

**İş yeri insanın ikinci evidir. Lakin bəzi insanlar üçün iş yeri onun yuvası olsa da, bəziləri üçün də ən pis xatirələri və travmaları ilə yadda qalan məkandır. Əvvəllər iş yerlərində daha çox kişilərə üstünlük verilsə də, günümüzdə kifayət qədər iş qadınları var. Bu qədər inkişafa rəğmən bu gün hələ də iş qadınlarını birmənalı qarşılamayan düşüncəyə sahib insanlar da az deyil. Bu tip insanlar qadının işləyə biləcəyi tək yerin ev olduğunu düşünür.**

Əsas məsələ isə gənc işçi qız və qadınların iş yerində cinsi zorakılığa daha çox məruz qalmasıdır. Gənc gözəl qızlar, boşanmış cazibədar qadınlar əsas hədəfdir. Əksər



iş yerlərində onlara qarşı psixoloji və cinsi istismar halları baş verir. Bəzi qurbanlar səslərini çıxarsa da, kifayət qədəri də qınaqdan qorxaraq susmağı seçir. Çünki cəmiyyətin 90 faizi belə hallarda qurbanı qınaq obyektinə çevirir.

Araşdırmalara görə, Avropa Birliyi ölkələrində ən çox cinsi təcavüzə məruz qalanların əksəriyyəti otel və restoran işçiləridir. İşçilərin 2 faizi iş yerində, 4 faizi isə iş yerindən kənarda fiziki zorakılığa məruz qalır.

### İş yerində olan zorakılıq davranışları aşağıdakılardır:

"Qətl, zorlama, oğurluq, yaralama, döymə, fiziki hücum, təpikləmə, cinsi istismar, etnik istismar, yumruqlama, tüpürmə, zorakılıq, şantaj, ayrı-seçkilik, təhdid, hədə-qorxu, aqressiv davranış, kobud rəftar, söyüş,



qışqırma və pis rəftar".

ABŞ məlumatlarına görə, iş yerində zorakılığın 62 faizi oğurluq, 4,3 faizi zorlama və cinsi təcavüz, 0,2 faizi isə qətl törətməkdir.

İş yerində zorakılıq növləri və tezliyi ölkələr arasında dəyişir. Araşdırmalara görə, işdə qadınlara qarşı cinsi istismar ən çox Şimali Amerika ölkələrində 7,5 faiz, kişilərə qarşı fiziki zorakılıq 2,7 faiz tezliyi ilə Qərbi Avropadadır. Qadınlara qarşı fiziki zorakılıq Şimali Amerika ölkələrində 4,6% tezliyi ilə yaşanır.

### Gənc işçilər zorakılığa daha çox məruz qalırlar

Qadınların həm işdə, həm də iş yerindən kənarda kişilərlə müqayisədə şiddətə məruz qalma riski daha yüksəkdir. Çünki qadınlar ümumiyyətlə müəllimlik, sosial xidmət mütəxəssisi, tibb bacısı, bank işçisi kimi şiddət baxımından daha riskli işlərdə çalışırlar.

Kişilər fiziki zorakılıq, qadınlar isə cinsi zorakılıq üçün daha çox risk altındadırlar və qadınlar cinsi istismarın aşkar qurbanlarıdır.

İş yerində zorakılıq işçilərdə aşağı motivasiya, iş performansının zəifləməsi, özünə hörmətin azalması, depressiya, əsəbilik, narahatlıq, qıcıqlanma və stressə səbəb olur.



Bunlar fiziki və psixoloji xəstəliklərə, siqaret çəkməyə, alkoqol və narkomaniyaya, istehsalat qəzalarına, əlilliyə və intihara səbəb ola bilər.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, psixoloq və sosioloqların fikirlərini öyrənib.

**Yazıçı kulturoloq, analitik-ekspert Aydın Xan Əbilov:** "Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da iş yerlərində qadınlara qarşı kişilərin seksual istismar, zorakılıq, təcavüz halları çoxalıb. Əvvəllər informasiya bolluğu və onların ötürülməsi ilə bağlı texnoloji imkanlar olmadığı üçün qadınlar bu barədə problemlərini yaya bilmirdilər. Amma indi fərqli dövrdəyik. Hətta baxış təzyiqi səbəbindən belə qadınlar hər hansı bir kişini məhkəməyə verə bilirlər.

Bəzi hallarda qadınlar bundan təhdid kimi istifadə edirlər. Ümumilikdə deyə bilərik ki, bu vəziyyət Azərbaycanda kütləvi hal almayıb. Amma getdikcə ölkəmizdə də bu cür şeylərin artmasının şahidi oluruq. Hətta qadınların qətlə yetirilməsi məsələsinə nəzər salsaq görərik ki, onların çoxu bu səbəbdən baş verib.

# ARAŞDIRMA

*Ardı Səh. 12*

# Bəzi iş yerlərində xanımlara niyə başqa gözlə baxılır?

Əvvəli səh. 11

Belə halların olmaması üçün cəmiyyətdə maarifləndirmə işlərinin aparılmasına ehti-



yac var. Müəyyən ictimai və dövlət qurumlarında qaynar xətlər olmalıdır. Psixoloq və ictimai xadimlərin iştirakı ilə komissiyalar təşkil olunmalıdır. Qadınlar belə məsələlərdə öz hüquqlarını qorumağı bacarmalıdır".

**Psixoloq Fidan Nizamova:** "Öncəliklə qeyd edim ki, boşanmış qadınlar özlərini və başına gələn bu halı normal qəbul etməlidir-



lər. Onlar özlərinə şübhə və ya özlərini əskik hiss edirmiş kimi yanaşmamalıdırlar. Onlar özlərini necə qəbul edirlərsə, ətraf da elə anlayır.

Cəmiyyət boşanmış qadınları qınayır. Bu qadınlara qarşı iş yerlərində müxtəlif təkliflər və şübhələr olur. Çünki çox təəssüf ki, cəmiyyətimizdə inkişaf etməyən insanlar var. Boşanmış qadınlar insanlara yerini və həddini bildirməyi bacarmalıdır.

Kobud olmamaq çox vacibdir. Amma qəti olmaq, özünə qarşı hörmət tələb etmək və şəxsi həyatının heç kimə aidiyyatı olmadığını bildirmək lazımdır.

Lakin anlamaq lazımdır ki, cəmiyyətdə hər kəs eyni beyində deyil. Biri üçün boşanma fəlakət, digəri üçün isə adi hal kimi qəbul edilə bilər".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

**Şəhər sakini Aysu Məmmədova:** "Bizdə və dünyada olan vəziyyətə nəzər salsaq, mənə görə pis hər yerdə pisdir. Bunu dünyaya və ya Azərbaycana görə ayırmaq olmaz. Qaldı ki işləyən qadınlara pis gözlə baxılmasına, bunda iki amil özünü göstərə bilər: Həm işlədiyin mühit, həm də qadının özünü aparma şəkli.

Əgər işlədiyin mühit ziyalı mühitdirsə, özünü dərk edib anlayan insanların əhatəsindəsənsə, problem olacağını düşünmürəm. Yox, əgər müdirin atası hesabına iş qurub bununla qürurlanan, özünü dərk etməyən biridirsə, belə biri ilə işləməzdən əvvəl iki dəfə düşünməlisən.

Bu gün bizim cəmiyyətdə bir çox qadınların bu tip istismar hallarında susduğunu və utandığını çox müşahidə edirik. Əsl günahkar öz işində ikən, sanki bütün günahı da, yanlışı da edən qadınlarmış kimi. Bu tip hallarda heç bir qadın susmamalı, öz haqqını tələb etməli yeri gəlsə, hətta polisə də şikayət etməlidir. Əgər bütün qadınlardan bu reaksiyanı görsələr qeyri-etik davranışlara cəsarət etməzlər".

**Şəhər sakini Zərintac Mayisqızı:** "Mənim bir tanışım ofisdə çalışırdı. Sırf bu səbəbdən işindən ayrılmışdı. Müdiri ona göz dikmişdi. Bu, həmin insanların daxilinin çirkinliyindən xəbər verir".

**Şəhər sakini Röya Vahabova:** "Yerindən asılı olmayaraq, şəxsin ailəli,subay, boşanmış və ya dul olması onun şəxsi seçimləri və şəxsi həyatıdır. İş yeri professional fərdlərin toplandığı yerdir. Əgər kimsə iş yoldaşının ailə statusuna görə münasibət qurursa, həmin şəxsin professionallığından və ən əsası insanlığından şübhə duyaram. Həyat bizi hansı nöqtədə vuracaq və ya uğurun zirvəsinə qaldıracaq bunu heç kim bilmir. Bəlkə sabah, bu gün boşanıb deyə pis baxdığımız insandan daha pis vəziyyətdə olacağıq? Bu məsələlərin qarşısının alınması ailədən gəlir. Doğulduğu gündən insan ətrafının təsirinə düşür. Amma qanun çərçivəsində bu işə əl atılmalıdır".

**Şəhər sakini Nicat Ələkbərov:** "İnsanlara (qadın və ya kişi olmasından asılı olmayaraq) şəxsi həyatı və cinsinə əsaslanaraq münasibət göstərilməsi istənilən sahədə yolverilməzdir. Xüsusilə, qadınlara iş yerində fərqli yanaşılması kimi neqativ hallarla tez-tez qarşılaşırıq. Bunun qarşısının alınması üçün cəmiyyətin psixologiyasında sosial davranış qaydalarına dair görüşləri dəyişmək lazımdır. Ölkəmizdə bu kimi ürəkaçmayan hallarla tez-tez qarşılaşmağımızın səbəbi isə mentalitetlə birbaşa əlaqəlidir. Ailədə qadının yeri, boşanan qadına ailə üzvlərinin göstərdiyi münasibət, onlar haqqında formalaşan fikirlər ailə üzvlərinin evdə kənarda da - ictimai nəqliyyatda, iş yerlərində və s. həmin ideaları əsas tutmasına zəmin yaradır".

**Şəhər sakini Sona Şıxəmirli:** "İş yerlərində təkcə pis gözlə baxmaq cəhətdən yox, eyni zamanda, bacarıq, əmək cəhətdən də qadınlar aşağılanır. Çalışdığım yerdə, şükür ki, belə hallar yoxdur. Amma bu, bir faktdır ki, bir çox yerlərdə qadınlara pis gözlə baxıb, ondan, onun əməyindən istifadə edirlər. Təbii ki, bu, qəbulolunmazdır".

**Şəhər sakini Nərmin Qocamanova:** "Hər şey şəxsin böyüdüyü mühitdən asılıdır. Onun böyüdüyü ailədə qadına münasibət necədir, qadına verilən azadlıqlar necədirsə, həmin insanın da düşüncələri o yöndə olur. Mental düşüncəli cəmiyyətdə olduğumuz müddətcə də bu hallar çox təkrarlanacaq. Öncə qadın özünü müdafiə etməyi bacarmalıdır, öz ayaqları üstündə durmağı bacarmalıdır. Eyni zamanda, totem və tabularından xilas olmaları üçün cəmiyyəti, əsasən də, orta yaşlı və yaşlı nəsli maarifləndirmək lazımdır. Çünki bu yaşda olan insanlar bu düşüncədə böyüyüb və bunu digər nəsillərə də ötürməyə çalışırlar. Televiziyada film və seriallarda da az hallarda güclü qadınlara rast gəlirik, daha çox qorxaq, şiddət görən, təcavüz edilən, kişidən asılı qadın obrazları görürük. Gördüyümüz, eşitdiyimiz hər şey qadına qarşı olan tabulardan ibarət olduğu müddətcə bu tip hallar yaşanmağa davam edəcək deyə düşünürəm".

**Şəhər sakini Aliyə Qarayeva:** "İş yerlərində qadınlara, xüsusilə də, boşanmış və subay olan gözəl qızlara (qadınlara) demək olar ki, pis münasibət göstərirlər. Onlar başa düşmürlər ki, qadın həyat yoldaşından boşanıb, əxlaqından boşanmayıb. Qadın ailəsini dolandırmaq üçün özü öz ayaqlarının üstündə durmaq istəyir. Amma Azərbaycanda demək olar ki, əksər iş yerlərində qadınlara birmənalı şəkildə xoşagəlməz, mentalitetdən kənar təkliflər edilir. Biz bunu tez-tez eşidir, şahidi oluruq. Bu, yolverilməzdir və qadınlara qarşı ən böyük təhqirdir. Bu, qadınları alçaltmaqdır.

Əgər qadının köməyi yoxdursa, əlbəttə ki, özü işləməlidir, ailəsini maddi cəhətdən təmin etməlidir. Mən düşünürəm ki, bu haqda bir qanun tərtib edilməli və belə şəxslər məsuliyyətə cəlb olunmalıdır ki, qadınlara qarşı olan əxlaqsız təkliflərin qarşısı alınsın".

***Ayşən Vəli***

# Rüşvət alan təhsil işçiləri necə cəzalandırılmalıdır?

"İlk növbədə qeyd edim ki, hal-hazırda ölkədə 4432 orta ümumtəhsil məktəbi və yaxud da digər bir rəqəmlə desək 4500-ə yaxın məktəb direktoru mövcuddur. Təbii ki, işə qəbul prosesi artıq bir neçə ildir şəffaf olaraq həyata keçirilir. Yəni, əminliklə deyə bilərik ki, orta ümumtəhsil məktəblərində müəllimlərin, direktorların, direktor müavinlərinin işə qəbulu tam proses olaraq şəffaf həyata keçirilir. Amma çox təəssüflər olsun ki, bəzi hallarda müəyyən neqativlərə də biz rast gəlirik". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, belə ki, orta ümumtəhsil məktəblərində direktor vəzifəsində çalışmaq üçün mütləq şəkildə test imtahanında həmin şəxslər iştirak etməlidirlər və ardınca test imtahanında keçid balının müsabiqə şərtini ödəyənlər müsahibəyə buraxılırlar: "Problem burada başlayır. Belə ki, bəzi rayon təhsil şöbələri, eyni zamanda rəhbər şəxslər digər imtahan iştirakçıları haqqında müsahibə komissiyasına mənfi rəy verirlər. Qabaqcadan razılaşdıqları və yaxud da pul aldıqları adamın haqqında müsbət rəy verir və imtahanda həmin şəxsin keçməsinə qeyri-qanuni yollarla şərait yaradır. Amma sizə əminliklə deyə bilərəm ki, Təhsil Nazir-



liyində orta ümumtəhsil məktəblərində direktor vəzifəsi üçün heç kim pul almır, burada hər hansı bir rüşvət yoxdur. Amma müəyyən vəzifəli şəxslər və yaxud da ki, tanınmış şəxslər özləri pul alırlar. Bəzi hallarda lotereya oynayırlar və fikirləşirlər ki, mən deyəcəm bu işə qəbul prosesində sənə kömək olunsun. Amma əslində isə proses şəffaf həyata keçirilir".

O, sözlərinə belə davam edib: "Hesab edirəm ki, mövcud problemin aradan qalxması üçün müstəqil ekspert qrupu yaradılmalıdır. Yəni, müsahibə mərhələsini kimin təşkil etməsi öncədən müəyyənləşməməlidir və hər bir kəs bilməlidir ki, onunla müsahibəni kim götürəcək. Bəzi hallarda məhz işbazlar, tanınmış şəxs və yaxud da məmurlar rayon təhsil şöbələri, yerli icra hakimiyyəti orqanları deyirlər ki, "biz Təhsil Nazirliyində kiməsə deyəcəyik". Amma mən əminliklə hər kəsə demək istəyirəm ki, orta ümumtəhsil məktəblərində müəllimlərin işə qəbul imtahanında, direktorların və direktor müavinlərinin işə qəbulunda kənar müdaxilə yoxdur. Burada pul yoxdur.

Pulu bəziləri addan istifadə edib alırlar. Amma əslində isə proses özü şəffaf həyata keçirilir və imtahanlardan müsahibə və müsahibələrdən uğurla keçənlər öz bilik və bacarıqları ilə keçiblər və bura hər hansısa bir kənar müdaxilə birmənalı olaraq mümkün deyil.

Biiz daha da şəffaflığın təmin edilməsi üçün ekspert komissiyasının, müsahibə komissiyasının kimliklərini məxfi saxlamalıyıq və kimlər müsahibəyə gedəcək, onunla bağlı məlumat olmamalıdır. Hesab edirəm ki, bu zaman tam şəkildə şəffaflıq mümkündür".

***Ayşən Vəli***

# Sanskiyalar Rusiyanı hansı vəziyyətə salacaq?

"Rusiya tərəfinə yönəlmiş sanksiyalar bir neçə istiqamətdə həyata keçirilir. Burada əsas istiqamətlərdən biri maliyyə və bank sisteminə tətbiq edilən sanksiyalardır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli bildirib.




Onun sözlərinə görə, proses Rusiyada fəaliyyət göstərən sahibkarların digər dövlətlər ilə münasibətlərinə ciddi şəkildə təsir göstərir: "Daha sonra bir çox texnoloji şirkətlər Rusiyaya texnolji məhsulları satmaqda müəyyən maneələr yaradırlar. Bu da Rusiyada sahibkarların həmin şirkətlə olan koorperasiya əlaqəsini, fəaliyyətini iflic vəziyyətə salır. Həmçinin müxtəlif Qərb şirkətlərinin Rusiyada açdığı zavodların və şirkətlərin bağlanması Rusiya iqtisadiyyatına əlavə mənfi təsir göstərir. Rusiyanın rezervlərinin dondurulması ödəniş sistemlərinin sıradan çıxmasına və məhdud şəkildə fəaliyyət göstərməsinə gətirib çıxardır. Bütün bunlar Rusiya iqtisadiyyatının gələcəyi ilə bağlı ciddi şəkildə narahatçılıqlar yaradır. Rusiyada inflyasiyanın sürətlə yüksəlməsi rus əhalinin alıcılıq qabliyyətini aşağı salır. Bütün bunlar Rusiya iqtisadiyyatına qısa müddətdə ziyan vuraraq uzun müddətli problemlər yaradacaq. Sanksiyaların spektoru və müharibənin inkişaf istiqamətləri bəlli olmadığı üçün konkret olaraq Rusiya iqtisadiyyatına vurulan ziyanın həcmini proqnazlaşdırmaq qeyri - mümkündür. Lakin müxtəlif proqnoz təşkilatlarının məlumatına görə, 2022-ci ildə Rusiya iqtisadiyyatının 7-11 faiz azalacağını gözləyirlər. Amma sanksiyalardan öncə Rusiya iqtisadiyyatının böyüyəcəyi planlaşdırılsa da, bir çox investiya banklarının hesablamalarına görə isə Rusiya iqtisadiyyatı bu sanksiyalar nəticəsində təxminən 35 faiz kiçiləcək".

***Banuçiçək Hüseynli***

ANALİTİK+AKTUAL

# Yeni dəhliz faktoru:
## Paşinyan özünü necə tələyə saldı

### Yaxud, bir addım "irəli" on addım geri!



**Azərbaycanla İran arasında azad edilmiş Şərqi Zəngəzur ərazilərimizdən İrana, oradan Naxçıvana və Türkiyəyə yol açacaq nəqliyyat infrastrukturu haqqında imzalanan memorandum ilk əvvəl onu sübut edir ki, rəsmi Bakı regionda öz gündəmini irəlilətmək niyyətində qərarlıdır və onun həm maliyyə, həm də təşkilatçılıq resursları kifayət qədər boldur.**

Lakin ən əsası, qonşu regionların milli maraqları ilə öz maraqlarını əlaqələndirmək, uzlaşdırmaq reallığı da Azərbaycan dövlətinin yüksək səviyyəli xarici diplomatik gedişləri ilə seçilməkdədir. Daha dəqiq desək, Prezident İlham Əliyev regiondakı münasibətlər fonunda praqmatizm və qarşılıqlı səmərə atmosferini yarada bilən strateq kimi tanınmaqdadır.

**Ermənistanın inandkarlığı isə əlbəttə ki, çox yaxın vaxtlarda nəinki dövlətin özünə, həm də erməni xalqına ciddi zərbələr endirəcək - istər iqtisadi, istərsə də digər cəhətlərdən...**

Beləliklə, il yarımdır ki, Azərbaycan Ermənistandan kommunikasiyaların blokadadan çıxarılması, nəqliyyat dəhlizinin açılması ilə bağlı cavab gözləyirdi. Ancaq Ermənistanın baş naziri Nikol Paşinyan gah Zəngəzur dəhlizinin adı ilə bağlı prosesi uzadır, gah "dəhliz" ifadəsinin üçtərəfli bəyanatda yer almadığını deyir, gah dəhlizin açılacağı halda vergi-gömrük nəzarəti haqqında bəhs edir, gah da müəyyən olunmamış sərhədlərdə qoşunların güzgüvari şəkildə geri çəkilməsi, hətta regiona xarici sülhməramlı kontingentlərin cəlb olunması tipli sərsəm ideyalarını ortaya atması ilə əslində həmin bəyanatın tələblərini pozmaqla məşğul olurdu. Paşinyan bir addım irəli atdığını sanarkən, on addım geriyə doğru sürüşdüyünün fərqinə belə vara bilməyib.



Təbii ki, belə iddiaları ilə erməni cəmiyyətində də eyni halı yaradan Paşinyan son anda "xalq bunu istəmir" bəhanəsi ilə çulunu sudan quru çıxarmağa cəhdlər göstərirdi. Halbuki, məhz Rusiyanın vasitəçiliyi ilə dəhlizin açılması yönündə dövlətlərarası komissiya da yaradılmışdı, üstəlik, görüşlər də keçirilmişdi. Və bütün bunlar son anda əhəmiyyətiz oldu, Ermənistanın inandkarlığı isə əlbəttə ki, çox yaxın vaxtlarda nəinki dövlətin özünə, həm də erməni xalqına ciddi zərbələr endirəcək - istər iqtisadi, istərsə də digər cəhətlərdən...





**Paşinyan İlham Əliyevin qarşısında növbəti dəfə diz çəkərək yalvaracaq, proses də məhz buna doğru inkişaf edir**

Nəticədə Azərbaycan özü üçün prinsipial məsələni həll etmək yolunu tapdı: quru yolu ilə Naxçıvana, oradan isə Türkiyəyə çıxmaq, özü də Ermənistan üçün kommunikasiyaları açmaq öhdəliyini daşımamaq imkanlarına sahib olması ilə!

İndi, məhz İranla mühüm memorandum imzalandıqdan sonra inadkarlığı və sərsəm ideyaları sayəsində özünü tələyə salan Paşinyan İlham Əliyevin qarşısında növbəti dəfə diz çəkərək yalvaracaq, proses də məhz buna doğru inkişaf edir. Beləliklə, tələyə düşən İrəvan Bakıdan nə istəyə bilər?

İlk növbədə İrana və Rusiyaya gedən dəmir yollarının öz ərazilərindən keçməsini, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə etmək mümkünlüyünü. Bütün bunlarla yanaşı, Azərbaycan Prezidenti Ankaraya səfəri zamanı Türkiyənin dövlət başçısı ilə Naxçıvandan Qarsa gedəcək dəmir yolunun inşası prosesinin sürətləndirilməsi barədə razılığa gəliblər. Bu layihə isə Ermənistanın Gümrü şəhərindən Türkiyənin Qars şəhərinə çıxışını mənasız edir, ya da həmin layihə Türkiyə üçün ikinci, hətta üçüncü dərəcəli məsələyə çevrilir.

Beləliklə, daha bir mümkün ehtimal budur ki, gələcəkdəki Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması Ermənistanın Azərbaycanla münasibətlərindən asılı vəziyyətdə olacaq. Və ən əsası! Əgər əvvəllər Ermənistan üçün kommunikasiyaların açılması Zəngəzur dəhlizinin isrifadəsi qarşılığındakı şərtlərə bağlı idisə, bundan sonrakı şərtlər ayrı cür olacaqlar - ərazi bütövlüyümüzün tanınmasını qətiləşdirən sülh sazişi!

Onu da qeyd edək ki, Prezident İlham Əliyev hazırkı dövrə qədər Ermənistana dəfələrlə xəbərdarlıqlar ünvanlayıb və bu xəbərdarlıqlar İrəvanı yalnız iqtisadi dalana dirəmir, yaxud, tələyə salmır, həm də digər tərəfdən güc tətbiq etmək imkanlarımızı da gündəmdə saxlamaqdadır və söz yox ki, Azərbaycanın istənilən qərarına başqa hər hansı dövlət qarşışa bilməz.

**Və daha bir əsas yarandı - Laçın dəhlizi faktoru!**

Başqa tərəfdən, Ermənistan öz lüzumsuz inadkarlığı ilə Rusiyanı da pis ayaqda qoyub. İlk növbədə, Zəngəzur dəhlizi məsələsinin gündəmdən çıxması Rusiyanın təhlükəsizlik təminatçısı rolunu aradan qaldırır. Üstəlik, Rusiyanın Cənubi Qafqaz Dəmir Yolları konserninin regiondakı rolu da azalır. Daha dəqiq desək, artıq belə bir nəticə də hasil edə bilərik ki, Rusiya Ermənistanın sərsəm indkarlığı sayəsində üçtərəfli bəyanatdakı bəndlərin realizəsini təmin edə bilmədi və daha bir əsas yarandı - Laçın dəhlizi faktoru!

Artıq bütün bunlardan sonra Laçın dəhlizi mövzusu yenidə aktuallaşır, çünki Zəngəzur dəhlizi məsələsinə son qoyulur. Artıq müvafiq məsələ yalnız Azərbaycan-Rusiya formatında həll olunacaq və çox yəqin ki, qısa müddətdə. Məhz belə bir mənzərədə Azərbaycan nümayiş etdirir ki, o bundan sonra çox gözləməyə həvəsli deyil. İrəvanın lazımsız kaprizləri Ermənistana baha başa gələcək. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın dövlət başçısı ilə görüşü zamanı prioritet gözləntilərini xüsusilə vurğuladı: Ermənistan silahlı qüvvələrinin Qarabağdan çıxarılması və kommunikasiyaların açılması. Artıq ikinci məsələdə Azərbaycan prinsipial şəkildə öz qərarını verdi və qeyd edilən İran-Azərbaycan memorandumu buna bariz sübutdur.

**İrəvan ağıllı tərpənsə qatarın sonuncu vaqonuna çata bilər...**

İndi isə qalır erməni silahlılarının Qarabağ regionunu tərk etmələri - seçim yenə də Ermənistandadır və Bakının bu məsələdə də gözləməsi, səbr etməsi mümkünsüz görünür. İrəvan bu şərtlərə əməl etməzsə, Laçın dəhlizinin qapıları bağlanır. Dövlət başçımız Brüsseldə səfərdə olarkən və Paşinyanla görüşərkən bu xəbərdarlığı da onun diqqətinə çatdırmışdı.

Nəticə olaraq isə qeyd edə bilərik ki, artıq yeni nəqliyyat dəhlizində İran və Türkiyə deyil, həm də Rusiya ilə Çin də maraqlıdır. Ermənistanın isə iştirakı böyük sual altında qalır. Bu baxımdan, Ermənistanın rəhbərliyi nəinki regiondakı yeni reallıqları qəbul, yaxud dərk etməlidir, həm də sonrakı ağır vəziyyətinin daha hansı fəlakətlərə sürüyəcəyi haqqında düşünməlidir. Ona görə də, İrəvanın Bakının tələblərinə riayət etməkdən başqa çarəsi də yoxdur, ağıllı tərpənsə qatarın sonuncu vaqonuna çata bilər...

**Rövşən RƏSULOV**

SİYASİ RAKURS

# Ermənistanın

## və separatçıların puça çevriləcək Qərb planları

### Qarabağdakı sabotaj və təxribatlar İrəvanın və separatçıların öz başlarında çatlayacaq

Beləliklə, Ermənistan 10 noyabr 2020-ci il bəyannaməsinin daha bir razılaşmasını pozdu. Nəticə olaraq aparılan çoxsaylı danışıqlara, keçirilən görüşlərə rəğmən nə dəhliz açıldı, nə də erməni silahlıları Qarabağı tərk etdilər. Bəs bu məsələdə Ermənistanın siyasi rəhbərliyinin planı nədir, ya da İrəvan bununla nəyi nümayiş etdirməyə çalışır?

### Ermənilərin təxribatçı planları nədən ibarətdir?

Məqsəd bəllidir, İrəvan bu kimi vasitə ilə Rusiyanı hədəfə alır və Moskvanın Ermənistanla Azərbaycan arasındakı vasitəçiliyinin heç olduğunu məhz tabe olduğu Qərbə isnarıc kimi göstərməyə çalışır. Yəni İrəvan öz inadkarlığı ilə üçtərəfli bəyanatın iki mühüm bəndini icra etməyəcəyini sərgiləyir. Prosesin təbii nəticəsi isə yalnız belə bir proqnozu irəli sürməyə zəmin yaradır: bəyanat pozulur, İrəvan kimi Bakı da belə olan təqdirdə bu razılaşmanın qüvvədən düşdüyünü bəyan edir, Rusiya sülhməramlılarının Qarabağda yerləşdiyi əraziləri tərk etməsini tələb kimi irəli sürür və nəhayət, antiterror əməliyyatlarına başlayır.



### Ancaq İrəvanın bu siyasəti israrla reallaşdırmağa çalışması arxasında daha hansı maraqları vard?

İlk növbədə Ermənistan bu oyunbazlığı ilə ”sübut” etməyə çalışır ki, münaqişə mövcuddur və varlığını saxlayır. Eləcə də, Ermənistan çox istəyir ki, Azərbaycan məhz onun planladığı şəkildə antiterror əməliyyatlarına başlasın, onun da arzusu yerinə yetsin:

1. Rusiyanın Ukraynada başlatdığı hərbi əməliyyatlarına görə beynəlxalq aləmdə get-gedə enən reputasiyasından istifadə edərək, dünyanın Kremlə qarşı qəzəbini daha da artırsın. 2. Bu vasitə ilə Qarabağ məsələsini gündəmə çıxarsın.

3. Bununla Rusiyanın Qarabağ fonunda guya ”təcavüzkar” olan Azərbaycanın tələbləri qarşısında aciz qaldığını göstərməklə Qərb siyasi güclərini regiona cəlb edə bilsin.

Məhz bu səbəbdəndir ki, qanunsuz erməni hərbi birləşmələri Qarabağda Azərbaycan silahlı qüvvələrinin mövqelərini davamlı olaraq atəşə tutur. Artıq bu kimi fonda Xankəndinə gedən qaz kəmərinin də məhz ermənilər tərəfindən sabotaj yaratmaq məqsədi ilə partladaraq sıradan çıxardıqları ehtimalları yaranmağa başlayıb.

### Ermənistanın ”xilaskar qəhrəmanları” - Makron və Bayden!

Ermənilər bundan sonra da bənzər və özlərinəməxsus ”əzabkeşlik”, ”məzlumluq” ənənələrini davam etdirməklə ”yaralanmış dinc sakinlərin”, ”artilleriya mərmiləri vasitəsi ilə dağıdılmış uşaq meydançalarının və bağçalarının”, ”dağıntılar altında qalmış sosial infrastrukturların” saxta fotoşəkillərini yayıb, özlərini Ukrayna ilə eyniləşdirməyə cəhd göstərəcəklər. Halbuki, Ukrayna reallıqları ilə Qarabağ saxtakarlıqları arasındakı fərq ortadadır.

Bununla da Rusiyanın birmənalı şəkildə qəddar, Makron-Bayden cütlüyünün isə humanist kimi göstərəcək ermənilər ABŞ-la Fransanı Qarabağa cəlb edib bu ölkələrin liderlərini ”xilaskar qəhrəmanlar” kimi təqdim etməyə çalışırlar.

”Ağıllı” ermənilərin planlarına əsasən, belə olacağı halda ”yazıq” separatçılara məhz Qərbin ”qəhrəman xilaskarları” yardıma qaçacaqlarmış...

### Təkcə, Azərbaycanın neft-qaz ixracı məsələsində Bakının diktəsi Qərbi düşünməyə vadar edə bilər

Bu baxımdan, separatçılar İrəvanın göstərişi ilə saxta ”SOS” siqnalı verməyə hazırlaşırlar, amma bir həqiqəti də unudurlar ki, Ukrayna kimi mühüm bir ölkədə baş verənlərə belə, Qərbin ”qəhrəman xilaskarları” sadəcə ”xalaxətrinqalmasın” tipli köməkliklər göstərirlər və Qərb də yaxşı bilir, dərk edir ki, minlərlə kilometr aralıda, Qarabağda baş verənlərin onlara heç bir dəxli yoxdur. Hətta Azərbaycanın ərazi bütövlüyünü Qarabağ da daxil olmaqla tanıyan Qərb əsla buna cürət etməz. Çünki qarşısında güclü vəı hər zaman ehtiyacı olduğu Azərbaycan dayanıb. Təkcə, Azərbaycanın neft-qaz ixracı məsələsində Bakının diktəsi Qərbi düşünməyə vadar edə bilər. Görünür, ermənilər bunu anlaya bilməyiblər və ona görə də planladıqları təxribatları onların öz başlarındaca çatlayacaq.

**Rövşən RƏSULOV**



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Konkret seçim bizdədir

**Ermənistanın yeni seçilmiş prezidenti Vaaqn Xaçaturyan martın 13-də İrəvandakı Karen Dəmirçyan adına idman kompleksində keçirilmiş inaqurasiyasından sonra nitq ilə çıxış edib. Amma onun hansı istiqamətdə nitq söyləməsinin, ölkəsi üçün nə işlər görəcəyinin bizə ümumiyyətlə, heç bir dəxli-filanı yoxdur. Ermənistanın idarəçiliyində yaxşı iştitrak etsə də özləri üçündür, pis iştirak etsə də özlərinə görədir.**

Fəqət, çıxışına başlamzadan əvvəl Vaaqn Xaçatryanın Nikol Paşinyana ”çox hörmətli baş nazir”, bütün ermənilərin katolikosuna ”Sizin müqəddəs zatınız, ali patriarx”, ”çox hörmətli Ermənistan respublilasının milli məclisinin sədri”, kimi ifadə etməsi də qalsın bir yana. Ancaq onun Qarabağın qondarma ”prezidenti” Araik Arutyunyana da ”çox hörtəmtli artsaxın prezident” kimi müraciət etməsi məni yalnız bir fikir üzərində düşünməyə və nəticəyə gəlməyə vadar etdi - bunlar heç vaxt düzəlməyəcəklər, özü də, KONKRET HEÇ VAXT!!!

Gəlin faktlara əsaslanaraq sual edək ki, axı niyə məhz konkret heç vaxt..? Atalarımızın çox gözəl və məntiqli bir misalı var, ”Eşşək bir dəfə palçığa batar”, yaxud, ”Eşşək iki dəfə palçığa batmaz”. Amma gördüyümüz kimi, bu bədbəxt məxluqlar nəinki palçığa batmaqda maraqlı və ya israrlı olduqlarını nümayiş etdirirlər, həm də düşdükləri palıçığın, çamur və batağın içində özlərini nəyə görəsə çox rahat hiss edirlər. 44 günlük müharibədə aldıqları ağır, sarsıdıcı məğlubiyyət, heç də ”Artsax Ermənistandır və nöqtə” deyil, ”Qarabağ Azərbaycandır və nida!” faktının sübuta yetirilməsi, Yerablur məzarlığında minlərlə yeni qəbirlərin əmələ gəlməsi belə bu ikiayaqlı eşşəklərə ağıl vermədi ki, vermədi.

Baxın, 2020-ci ilin 10 noyabr tarixindən sonra kapitulyasiya sənədinə imza atdılar, məğlubuyyətlərini, Qarabağın ”artsax” olmadığını etiraf etdilər, üçtərəfli bəyanatda əks olunmuş şərtlərə boyun əydilər, indi də yeni seçilmiş Vaaqn adlı təzə siyasi uzunqulaqları yenidən haranınsa eşşək Araikinə ”çox hörtmətli artsaxın prezidenti” deyə xitab edir (?!) Bu, həm də o deməkdir ki, ”ay qalib Azərbaycan dövləti, ay vasitəçi Rusiya, dedixlmizdedixdi, bizi palçığın içində daha dərin batalığa batırın, onsuz da eşşək gəlmişik, eşşək də gedəcəyik...”

Bəs belə olan halda nə edilməlidir? Bu sualın da cavabı çox bəsitdir - əsla Paşinyanı və onun ətrafını ”sülhsevər”, ”barışcıl”, ”mələk tipli”, yaxud ”bizim agent” nümunəsində görməmək, onları düşmən olaraq görmək, özü də ta eşşəklikdən çıxmalarına qədər, halbuki bu da inandırıcı görünmür. Biz elə etməliyik ki, Paşinyan və s. onabənzər zir-zibillərlə birdəfəlik, KONKRETLİKLƏ qurtarmaq lazımdır. Ya qurtarmalıyıq, ya da bu problemləri öz övladlarımıza ötürməliyik. Konkret seçim bizdədir!

## ...Bəs, ruslar deyir ki, ukraynalılar barbardır



**“Rusiyalı hərbi əsirlər ya dəyişdiriləcək, ya da onlar Ukraynada cəzalandırılacaqlar” SİA ”Ukrinform”a istinadən xəbər verir ki, bu sözləri Baş nazirin müavini - Müvəqqəti İşğal olunmuş Ərazilərin Reinteqrasiyası üzrə nazir, Əsirlərin Müalicəsi üzrə Əlaqələndirmə Qərargahına rəhbərlik edən İrina Vereşçuk bildirib.**

”Əlbəttə, biz barbar deyilik və hər şey qanun çərçivəsində həll olunacaq. Biz beynəlxalq humanitar hüquqla müəyyən edilmiş qaydada işləyəcəyik və mütləq mübadilə fondu yaradacağıq. Rusiya hərbi əsirləri dəyişdiriləcək, ya da onlar Ukraynada cəzalandırılıacaqlar”, - deyə hökumət rəsmisi bildirib.

Vereşçuk, eyni zamanda, vurğulayıb ki, Rusiya hakimiyyəti öz ölən əsgərlərinin, eləcə də yaralıların taleyi ilə o qədər də maraqlanmır - çox vaxt onları döyüş meydanında atıb gedirlər. Ona görə də belə bir vəziyyətdə Rusiya tərəfinin Ukraynada dəmir barmaqlıqlar arxasında qalacaq əsgər və zabitləri ilə nə qədər maraqlanacağını da proqnozlaşdırmaq çətindir. Məhbusların mübadiləsinin hansı formatda həyata keçiriləcəyi ilə bağlı da dəqiqlik yoxdur.

”İndi Beyn?lxalq Qızıl Xaç Komit?sinin da iştirak etdiyi hərbi əsirlərin mübadiləsi sistemi var. Əsirlərin hər biri üçün xüsusi kartlar doldurulur, onlar Qırmızı Xaça göndərilir. Mən artıq siyahılara baxmışam və heyrətlənirəm. Rusiya Federasiyasının müharibəyə göndərdiyi uşaqların doğulduğu illər: 2002, 2003-cü illərdir. Mən şokdayam. Axı onlar deyirdilər ki, bu, Rusiyanın peşəkar ordusudur, amma əslində uşaqlar döyüşür”.- Bunu da Vereşçuk bildirib. O, həmçinin beynəlxalq humanitar hüquq sisteminin və institutlarının modernləşdirilməsinə və təkmilləşdirilməsinə ehtiyac olduğu fikrini bildirib.

”Bu gün dünya dəyişib. İndiki müharibələr qeyri-ənənəvi xarakter daşıyır. Rusiya kimi dövlətlər Cenevrə Konvensiyasını imzalasalar da, beynəlxalq hüquqa məhəl qoymurlar. Lakin Rusiya etdiklərinə - müharibə cinayətlərinə, insanlıq və xalqa qarşı etdiyi əməllərinə, mülki əhalini qırdığına görə tam məsuliyyət daşıyacaq. Lakin bu konvensiyalar, eləcə də Beynəlxalq Qızıl Xaç Komitəsinin vəzifələri və missiyasına yenidən baxılmalıdır”. Qeyd edim ki, bunu da Vereşçuk bildirib.

Nazir müavininin sözlərinə görə, Ukraynada hərbi əsirlərlə rəftar sahəsində zəruri normativ-hüquqi baza təkmilləşdirilib, prosedur hazırlanıb, Koordinasiya Qərargahı yaradılıb və məsul katiblər təyin edilib. Xatırladaq ki, martın 11-də Ukrayna Nazirlər Kabinetinin sərəncamı ilə Əsirlərin Müalicəsi üzrə Koordinasiya Qərargahı da yaradılıb.

..Bəs, ruslar deyir ki, ukraynalılar barbardır.

**Ağasəf Babayev**

# Fabrissi Vielmini:
## “Azərbaycan İtaliyaya alternativ qaz təchizatçısı ola bilər”




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

**"ABŞ Ukraynada münaqişəni üzə çıxarmaq üçün səylər göstərib və bu, həm də Avropanın Amerikadan asılılığını artırmağa yönəlib"**





Məlum olduğu kimi dünya yeni enerji böhranı dövrünə qədəm qoyub. Rusiya və Qərb arasında qarşılıqlı sanksiyalar müharibəsi nəticəsində neftin qiyməti sürətlə artır. Təbii qazin qiyməti isə tarixi rekord vuraraq min kubmetri 4 min dolları keçib. Rusiyanın qaz təchizatını azaltması və kəsməsi ehtimalı ilə bağlı tələbatının 40 faizdən çoxunu Rusiya qazı hesabına ödəyən Avropada ciddi problem yaranır. Bəs Avropa hansı alternativlərdən istifadə edə bilər? Tanınmış italyan analitiki Vision&Global Mərkəzinin (İtaliya) Fabrissi Vielmini ”Caliber” analitik mərkəzinə müsahibəsində bu barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Cənab Vielmini, ABŞ və Aİ-nin Rusiyaya qarşı sanksiya siyasətini necə qiymətləndirirsiniz? Sanksiya rejiminin daha da sərtləşdirilməsini gözləmək lazımdırmı?***

- Rusiyanın Ukraynaya qəfil hücumu səbəbindən rusofobik isteriya Avropanın əsas axınını bürüdü. Düşünürəm ki, Rusiya siyasətinə cavab olaraq ABŞ və Aİ-nin sanksiyalar siyasəti sərtləşdiriləcək. Sanksiyalar ABŞ və Aİ-nin əlində əsas siyasi və iqtisadi alətdir, bu faktın da Avropa iqtisadiyyatına mənfi təsir göstərməsinə baxmayaraq, onlar sanksiyalar xəttinə mümkün qədər əməl edəcəklər.

***- İtaliya Rusiyanın cavab sanksiyalarının mənfi təsiri ilə nə dərəcədə üzləşib?***

- Rusiya Federasiyasının cavab sanksiyaları səbəbindən Avropanın ərzaq təhlükəsizliyi təhdid altındadır. Təbii ki, sanksiyalar İtaliya iqtisadiyyatından da yan keçməyib, ona mənfi təsir göstərir. Məsələ burasındadır ki, Rusiya İtaliya üçün xüsusilə kənd təsərrüfatı istehsalı sahəsində çox mühüm satış bazarıdır. İnanıram ki, gələcəkdə İtaliya məhsullarının Rusiyaya ixracı daha da azalacaq.

Digər tərəfdən, İtaliya iqtisadiyyatı təkcə Rusiya qazı deyil, həm də kənd təsərrüfatı gübrələri və taxıl çatışmazlığından böyük zərər çəkəcək. İtaliyada artıq Rusiya sanksiyaları nəticəsində enerji resurslarının, neft məhsullarının, xammalın, tikinti materiallarının qiymətlərində artım müşahidə olunur. Nümunə olaraq yalnız bir misal verim. Bu həftə cənubda italyan balıqçılar yanacağın bahalaşması səbəbindən dənizə çıxmayıblar. Bu iş artıq onlar üçün sərfəli deyil. Bu fakt Ukraynada baş verənlərə görə Rusiyadan heç də az günahkar olmayan Avropa İttifaqının düşünülmüş və uzaqgörən siyasətinin hansı nəticələrə gətirib çıxardığının göstəricisidir.

Aydındır ki, Rusiya-Ukrayna böhranı İtaliya xalqı ilə siyasi elitası arasında mövcud ziddiyyəti açıq şəkildə göstərir.

***- Rusiya qazının Avropaya tədarükünün dayandırılması halında İtaliya hansı ölkələri alternativ təchizatçı hesab edə bilər?***

- Azərbaycan İtaliyaya qaz tədarükü üçün alternativ bazar ola bilər. Bu baxımdan TAP qaz kəmərinin imkanları nəzərdən keçirilə bilər. Çox güman ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji sektorunda iqtisadi əlaqələr genişlənəcək.

***- Rusiya-Ukrayna müharibəsi nəticəsində ABŞ-ın qalib gələcəyi, Avropanın isə uduzacağı ilə bağlı ekspertlərin fikirlərini bölüşürsünüzmü?***

- Rusiya ilə Ukrayna arasında müharibə Amerika və Britaniyanın müəyyən dairələrinin siyasətinin məhsuludur. Şübhəsiz ki, ABŞ bu münaqişədə qalib gələcək, çünki bu, onlara Avropaya alternativ enerji mənbəyi kimi çıxış etmək imkanı açacaq. Enerji qiymətlərinin artması Amerika şirkətlərinə Avropa şirkətləri ilə müqayisədə misilsiz üstünlüklər verir.

Birləşmiş Ştatlar Ukraynada münaqişəni üzə çıxarmaq üçün səylər göstərib və bu, müəyyən dərəcədə Mərkəzi və Qərbi Avropanın Amerika siyasətindən asılılığını artırmağa yönəlib. Amma düşünürəm ki, Rusiya-Ukrayna böhranı nəticəsində Ukrayna iqtisadiyyatına möhkəm yerləşmiş Çin ABŞ-dan daha çox qazanacaq. Bundan əlavə, Çin faktiki olaraq Rusiyanı sıxışdırdığı postsovet məkanında iqtisadi sahədə öz mövqeyini xeyli irəlilətdi.

***- Rusiya Federasiyası ilə Avropa arasında iqtisadi müharibənin daha da güclənəcəyini və uçurum yaranacağını ehtimal edirsinizmi?***

- İndiki mərhələdə düşünürəm ki, bəli, bu mümkündür. Digər məsələ budur ki, böhranın miqyası Avropa əhalisinin həyat tərzini məhv edəndə, öz bacarıqsız rəhbərlərindən baş verən hər şeyin hesabını tələb edəcək.

***- İtaliya Ukraynanın Avropa İttifaqına daxil olmasını dəstəkləyirmi?***

- İtaliya Ukraynanın ”Avropa ailəsi”nə mənsub olmasını dəstəkləyir və bu, İtaliyanın baş naziri Mario Draqi səviyyəsində bəyan edilib. İtaliya Ukraynaya və bütün Ukrayna xalqına öz həmrəyliyini və dəstəyini bildirir. Əslində bu, reallıqdan daha çox ritorikadır, Aİ-yə üzvlük uzunmüddətli proses olduğu üçün bürokratik cəhətdən mürəkkəb və abstruktiv bir struktura daxil olmaqdır.

***Tərcümə - Elçin Bayramlı***

Səs
15 mart
2022-ci il

# "Barselona"dan 21-ci əsrin rekordu

Katalon təmsilçisi "Barselona" İspaniya La Liqasının 28-ci turunda "Osasuna" ilə matçında (4:0) 21-ci əsrin rekorduna imza atıb. Belə ki, Kataloniya klubunun heyətində yarımmüdafiəçi Riki Puç qollardan birini vurub. Beləliklə, İspaniya çempionatının bu mövsümündə "Barselona"da 22 fərqli futbolçu qol vurub. Bununla da, Kataloniya təmsilçisi Madrid "Real"ının rekordunu qırıb.

Belə ki, Madrid klubunda 2019-2020-ci il mövsümündə 21 futbolçu qol vurub. Qeyd edək ki, "Barselona" 27 matçdan sonra 51 xalla üçüncü pillədə qərarlaşıb.





# Xərçəng

## xəstəliyinin erkən əlamətləri açıqlanıb

Britaniyanın tanınmış tibb mütəxəssisi Sanjay Mehta bildirib ki, mədə xərçənginin bəzi əlamətləri erkən görünə bilər və beləliklə, xəstəliyin daha tez diaqnoz qoyulmasına imkan verir. Bu barədə "Express" qəzeti xəbər verib.

O qeyd edib ki, çox vaxt mədə xərçəngi gec mərhələdə aşkarlanır, çünki onun ilk əlamətləri qeyri-müəyyən olub və pasiyent onları başqa xəstəliklərlə qarışdıra bilər. Mehta bu mümkün əlamətlər arasında mədə qıcqırması, həzm sisteminin pozuntusu, iştahda dəyişikliklər, o cümlədən az miqdarda yeməkdən sonra toxluq hissi, həmçinin ürəkbulanma və qusma kimi halları qeyd edib.

Mütəxəssis xəbərdarlıq edib ki, erkən xərçəng mədədə qanaxmaya səbəb ola bilər, nəticədə qırmızı qan hüceyrələrinin sayı azalır və xəstəlik anemiya şəklində özünü göstərir - bu, qan analizi zamanı məlum olur. Həkim həmçinin əlavə edib ki, udmaq çətinləşəndə, qarının yuxarı hissəsində ağrılar yarananda, turşu axını yarananda və insan tez arıqladıqda həkimə müraciət etmək lazımdır. Bu əlamətlər digər xəstəlikləri göstərə bilər, lakin onları mütəxəssislə yoxlamaq lazımdır.



# TATLISƏS FAKTLARI DANIŞDI

2011-ci ildə məruz qaldığı silahlı hücum nəticəsində ağır yaralanan türk müğənni İbrahim Tatlısəs dünən axşam saatlarında nümayiş olunan İbo Şousunda vurulma anından danışıb. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, müğənni, "Bunu hiss etdim. Gördüm başımdan nəsə damlayır və həkimə dedim ki, bu nədir? Həkim də oradan qan damcılayır dedi. Başımı yana çevirməsəm güllə tam orta hissəyə gələcəkdi. Əməliyyatdan sonra inamını heç vaxt itirmədiyini ifadə edən Tatlısəs, "Tualetə gedə bilmirdim, ağzımdan su axırdı. Ona görə də bu vəziyyətə gəldim, şükür".

*Ayşən Vəli*

# Saç

## tökülməsinin əsas səbəbləri açıqlandı

**"Saç dərisində keçəlləşmənin və yaxud da saçın tökülməsinin müxtəlif səbəbləri ola bilər. Androgen alopesiyalar ən geniş yayılmış saç tökülmə formalarından biridir". Bu sözləri SİA-ya açıqlamasında dermotoloq Sevinc Kərimova bildirib.**

Onun sözlərinə görə, hansıki bu, əsasən kişilərdə rast gəlinir: "Lakin nadir hallarda xanımlarda da görülən bir xəstəlikdir. Bu sırf androgenlərin, yəni kişi cinsi hormonlarının baş dərisinin təpə nahiyəsinə verdiyi təsir nəticəsində yaranır. Bu cür keçəlləşmə daha çox irsi xarakter daşıyır. Adətən androgen alopesiya pasientlərdə dərilərinin çox yağlı olduğunu müşahidə edirik.

Ocaqlı saç tökülmə, kiçik ocaqlar şəklində, total alopesiyalar şəklində olmaqla da saç tökülmələrinin müxtəlif formaları müşahidə olunur. Total alopesiyalarda nəinki saç tökülür, bütün bədəndə tük demək olar ki, yox olur. Müəyyən bir səbəbdən, xüsusilə də stress nəticəsində saçların ocaqlı şəkildə və yaxud da daha kəskin forması total olaraq tökülməsini müşahidə edirik. Burada həm endokrin sisteminin rolu var, həm də sinir sisteminin.

Bəzi saç tökülmə problemlərinin qarşısını almaq üçün isə dermetoloqlarla yanaşı nevropatoloq, endokrinoloqun müalicəsi də əhəmiyyət kəsb edir. Ümumiyyətlə saç tökülməsi problemi ilə bağlı müraciətlər olduqca çox olur. Hazırda isə bu xəstəliklə müraciət edənlərin çoxları "Covid-19" xəstəliyini artıq 2-3 aydır ki, keçirənlər olur. Bu zaman isə əsas səbəb kimi mineral çatışmamazlığı, anemiyalar, qan azlığı, qanda dəmirin azlığı və s. göstərilir. Buna görə mütləq şəkildə saç tökülməsinin səbəblərini araşdırmaq lazımdır. İstənilən halda bu saç tökülmə növlərində müasir tibbdə, dermotologiyada hər birinin mükəmməl müalicələri var".

*Səbinə Hüseynli*



**BİLMƏNİZ VACİBDİR!**

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220